

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu: xeyirxahlıq və humanistlik rəmzi



4

№ 175 (7100)

25 sentyabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub




2

# Qafqazda sülhün və müharibənin açarı



5

## Parlament Azərbaycanın inkişaf tarixinə yeni uğurlar gətirəcək



6

## İkinci Vətən müharibəsi: xalqın qürur və namusunun xilası



8

## Daşkənddə Azərbaycan-Özbəkistan Media Forumu keçirilib




7

## Dünyada uşaq dinlənçiliyi



12

## Qanunsuz kommunal haqqı tələb edildikdə nə etmək lazımdır?



16

# Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış olub. AZƏRTAC xəbər verir ki, müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına sərgilər haqqında məlumat verdilər.***

İlk "ADEX" sərgisi 2014-cü ildə keçirilib. İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib. Bu illər ərzində sərgini 30 mindən çox qonaq ziyarət edib.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycanda və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

"ADEX" dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında da mühüm rol oynayır. Bildirildi ki, bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın









ölkəsindən 218-dən artıq şirkət iştirak edir. Sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.

Qeyd edildi ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev əvvəlcə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxdı. "Azərsilah"a məxsus pavilyonda PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkcələr, aviabombalar və təlim simulyatorları nümayiş etdirilir.

Belarus Respublikasının pavilyonu ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, "Belspetsvneştexnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi Belarus Hərbi Sənaye Kompleksinə daxil olan dövlət müəssisələri tərəfindən istehsal edilən hərbi təyinatlı məhsulların idxalı və ixracı proseslərini tənzimləyən dövlət təşkilatıdır. Sərgidə şirkətin qumbaraatan kompleksləri və onun tətbiq variantları, tank əleyhinə raket kompleksləri, atıcı silahlar və zirehli texnika üçün optik cihazlar, modernləşdirilmiş Reaktiv Yaylım Atəş Sistemlərinin maketləri, radiostansiyalar, hava hücumundan müdafiə və elektron müharibə texnikasının maketləri nümayiş olunur.

Sərgidə Serbiyanın "Yugoimport-SDPR" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət silahların istehsalı, yaradılması, modernləşdirilməsi və ixracı istiqamətində aktiv fəaliyyət göstərən serb şirkətləri sırasında birinci yerdədir. Sərgidə şirkət tərəfindən müxtəlif çaplı silah və sursat, o cümlədən hərbi ləvazimatlar təqdim olunur.

Qardaş Türkiyə sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Bu şirkətlərdən biri olan "Roketsan" 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, şirkət bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

"Dearsan Shipyard" gəmiqayırma və gəmi təmiri zavodu inşa edildiyi 1980-ci ildən Türkiyənin ən mühüm müəssisələri arasındadır. "Dearsan" dəstək gəmisi, korvet (gözətçi) tipli gəmilər, patrul gəmiləri, çevik hərəkət qayıqları, desant gəmiləri, hidroqrafiya və okeanoqrafiya elmi-tədqiqat gəmiləri, minaaxtaran gəmilər, özü idarəolunan qayıqlar, mülki nəqliyyat gəmiləri və həmçinin gəmiqayırma zavodunun tikintisi və ya modernləşdirilməsi, dəniz su sərhədlərinin mühafizə sistemləri, sursat istehsalı zavodu kimi müxtəlif mürəkkəb hərbi platformaların tikintisi üzrə ixtisaslaşıb.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Turkish Aerospace"dir. "Turkish Aerospace" sabit və hərəkətli hava platformalarından pilotsuz uçuş aparatı və peyklərə qədər inteqrasiya olunmuş aerokosmik sistemlərin dizaynı, işlənib hazırlanması, müasirləşdirilməsi, istehsalı, inteqrasiyası və istifadəsinə dəstək sahəsində Türkiyənin texnologiya mərkəzidir. Aerokosmik və müdafiə sahəsində ən yaxşı yüz qlobal şirkət arasında yer alan "Turkish Aerospace" tərəfindən dizayn və istehsal edilən bütün məhsullar üçün inteqrasiya olunmuş logistika xidməti də göstərilir.

Dövlətimizin başçısı Pakistan İslam Respublikasının pavilyonları ilə də tanış oldu. Bildirildi ki, ölkəmizlə əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Bildirildi ki, Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti Pakistanın birinci dərəcəli dövlət mülkiyyətində olan müdafiə konsorsiumudur və ölkənin ən böyük müdafiə istehsalatı müəssisələrini, o cümlədən əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edir. Şirkət tərəfindən sərgidə döyüş PUA-ları, aviasiya raketləri, tank mühafizə sistemləri, maskalanma toru, tank əleyhinə sistemlər nümayiş olunur. "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti sərgidə fəal iştirak edir.

*Ardı Səh. 3*

# Prezident İlham Əliyev "ADEX-2024" və "Securex Caspian" sərgiləri ilə tanış olub

Əvvəli Səh. 2

"Azərsilah"ın daha bir pavilyonu sərginin 3-cü zalında fəaliyyət göstərir. Burada ziyarətçilərə müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, kiçikçaplı patronlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və zirehli gödəkcələr, optik nişangah və cihazlar təqdim olunur. Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "REPKON"dur. Şirkət təzyiq ilə metal emalı sektoru üçün tam "açar təslim" istehsal qurğularının tədarükçüsü və qlobal bazar üçün metal emalı maşınlarının inkişaf etdiricisi və istehsalçısıdır. Patentli dizaynı və istehsal "know-how" ilə "REPKON", 1978-ci ildən etibarən dünya üzrə istehsalçılara metal qəlibləmə avadanlığı təqdim edir.

"ADEX" sərgisində iştirak edən Türkiyənin "Meteksan" şirkəti yüksək texnologiyalı şirkətlərin müdafiə sənayesinə yönəlik layihə və fəaliyyətlərini bir araya gətirmək və koordinasiya etmək məqsədilə yaradılıb. Şirkətin əsas məqsədi müdafiə sənayesi sahəsində Türkiyə Silahlı Qüvvələrinə və digər təhlükəsizlik güclərinə yerli, milli, müstəqil və orijinal, yüksək texnologiyalı məhsul və altsistemlər inkişaf etdirmək və istehsal etməkdir.

Prezident İlham Əliyevə məlumat verildi ki, Türkiyənin "Aselsan" şirkəti artıq beşinci dəfədir "ADEX" sərgisində iştirak edir. Şirkət 1975-ci ildən fəaliyyət göstərir və əsasən elektronika,









aviasiya, silah, radar və optik, telekommunikasiya sistemləri, informasiya texnologiyaları və müdafiə sənayesi ilə əlaqədar digər texnoloji məhsullar istehsal edir. Sərgidə Birləşmiş Ərəb Əmirliklərinin "EDGE Group" şirkəti də öz məhsullarını təqdim edir. 2019-cu ildən yaradılan şirkətin əsas fəaliyyət istiqaməti qabaqcıl innovasiyaları, məhsulları və xidmətləri beynəlxalq bazarlara çıxartmağa yönəlib. Şirkətin əsasən 5 istiqamətdə - platforma və sistemlər, raket və müxtəlif növ silahlar, kosmik və kibertexnologiyalar, daxili təhlükəsizlik vasitələrinin ixracı istiqamətlərində ixtisaslaşıb.





İsrailin milli pavilyonlarında nümayiş edilən eksponatlarla tanış olan Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi ("IAI") milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir. "IAI" şirkəti sərgidə yerüstü sistemlər, çoxmissiyalı havadan kəşfiyyat və nəzarət sistemləri, radarlar, rabitə sistemləri, PUA-lar üçün komponentlər, çoxsahəli ballistik raketlər və rəqəmsal kommunikasiya peykləri nümayiş etdirir.

Sərgidə İsraili təmsil edən daha bir şirkət "RAFAEL Qabaqcıl Müdafiə Sistemləri" MMC-dir. Şirkət havada, quruda, dənizdə və kosmosda müdafiə, kibertəhlükəsizlik və təhlükəsizliklə bağlı qabaqcıl həllər təklif edir. İsraili təmsil edən "Elbit Systems" dünya miqyasında müdafiə sahəsi ilə bağlı geniş spektrli proqramlarla məşğul olan beynəlxalq yüksək texnologiya şirkətidir. Şirkət sərgidə ordu idarəetmə mərkəzi, müxtəlif növ yüksək dəqiqlikli raketlərin istifadə olunduğu raket buraxılış qurğuları, avtonom 155 millimetrlik raket atış sistemi, dron və antidron sistemlərini təqdim edir.

Sərgidə İsrailin "Uvision" şirkəti də öz məhsullarını təqdim edir. Şirkət döyüşlərdə sınaqdan keçmiş "Dövr edən döyüş başlığı sistemləri"ni dizayn və istehsal edir, dünyanın müxtəlif ordularına dəqiq və effektiv hücum-əməliyyat imkanları təqdim edir. Şirkətin HERO sistemləri nadir aerodinamik platforma konfiqurasiyaları ilə yüksək dəqiqlikli zərbə qabiliyyətləri təqdim edir.

Rusiya Federasiyası da "ADEX-2024" sərgisində ən çox şirkətlə təmsil olunan ölkələrdən biridir. "Rosoboronexport" Rusiyanın müdafiə sahəsi ilə bağlı məhsulların, xidmətlərin və texnologiyaların tam çeşidinin ixracı üzrə yeganə dövlət agentliyidir. Qlobal silah bazarında liderlərdən biri olan "Rosoboronexport" Rusiyanın bu sahədə məhsul ixracının 85 faizdən çoxunu təşkil edir. Agentlik Rusiyanın müdafiə sənayesi üzrə 700-dən çox müəssisə və təşkilatı ilə əməkdaşlıq edir. Stenddə şirkətin nəzdində fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsullar təqdim olunur.

Prezident İlham Əliyev Çin Xalq Respublikasının sərgidəki pavilyonunda da oldu. Məlumat verildi ki, bu ölkəni təmsil edən "Dəqiq Avadanlıqların İdxalı və İxracı üzrə Çin Milli Korporasiyası" ("CPMIEC") müdafiə sənayesi sahəsində ümummilli ticarət müəssisəsidir. "CPMIEC" sərgidə müdafiə xarakterli raket silah sistemlərinin, aerokosmik avadanlığın, peyk texnologiyalarının, xüsusi cihazların, dəqiq avadanlıqların, optik alətlərin, elektron məhsulların və xüsusi nəqliyyat vasitələrinin idxalı və ixracı ilə bağlı məlumat məhsulları nümayiş etdirir.

Slovakiya sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. Bu ölkənin 2014-cü ildən fəaliyyət göstərən "Deftech" şirkəti PUA sistemlərinin istehsalı və təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərir. Şirkət tərəfindən sərgidə müxtəlif növ zirehli nəqliyyat vasitələri və mobil müdafiə sistemləri təqdim olunur.

Türkiyənin müdafiə sənayesini sərgidə təmsil edən daha bir şirkət isə "Baykar"dır. 1986-cı ildən fəaliyyət göstərən "Baykar" şirkəti ölkədə ilk yerli PUA sistemlərini istehsal edərək müdafiə və aviasiya sənayesində inqilab yaradıb. Şirkət sərgidə "Akıncı" adlı PUA, "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsullarını təqdim edir.

Qətər Dövləti də sərgidə ilk dəfə milli stendlərlə iştirak edir. "Barzan Holdings" dövlətə məxsus müdafiə və təhlükəsizlik şirkətidir. Şirkət Qətərin Müdafiə Qüvvələrinin inkişafını və modernləşdirilməsini dəstəkləmək məqsədilə müxtəlif sahələrdə fəaliyyət göstərir. "Barzan Holdings" sərgidə Qətərin müdafiə və təhlükəsizlik texnologiyalarını nümayiş etdirir.

Sərgidə Ukraynanı bu ölkənin Müdafiə Sənayesi Müəssisələrinin Milli Assosiasiyası ("NAUDI") təmsil edir. 2020-ci ildə yaradılan "NAUDI"nin fəaliyyət sahəsinə zirehli nəqliyyat vasitələri, özüyeriyən haubitsalar, PUA-lar, radarlar, radioelektron mübarizə vasitələri, kamikadze dronları, müşahidə və kəşfiyyat sistemləri, artilleriya, sursat və s. daxildir. Assosiasiyanın tabeliyindəki müəssisələr Ukrayna Müdafiə Nazirliyini NATO standartlarına cavab verən müasir hərbi texnika və sursatlarla təmin edən əsas təchizatçılardır.

Prezident İlham Əliyev Azərbaycan Müdafiə Nazirliyinin stendində də oldu. Bildirildi ki, Müdafiə Nazirliyi sərgidə ilk dəfə öz stendi ilə təmsil olunur. Stenddə silahlanmada olan müasir silah sistemləri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələrin təchizat vasitələri sərgilənir. Eyni zamanda, Müdafiə Nazirliyinin tabeliyində olan təmir müəssisələrinin imkanları da təqdim edilir. Sərgidə, həmçinin ziyarətçilərə Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələri barədə ətraflı məlumat verilir.

Sonra Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzinin qarşısında nümayiş etdirilən hərbi məhsullara və texnikalara baxdı. "Azərsilah" QSC tərəfindən sərginin açıq havada nəzərdə tutulmuş ərazisində zirehli maşınlar, kəşfiyyat və kamikadze dronları, o cümlədən PUA-lar nümayiş etdirilir.

Sumqayıt Texnologiyalar Parkı (STP) da sərgidə fəal iştirak edir. STP regionda ərazisinə görə ən böyük sənaye məhsulları istehsal edən mərkəzlərdən biridir. Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan STP 30-dan artıq istehsal sahəsi ilə öz sektorunun lideridir. Sərgidə şirkət tərəfindən silah və sursat, hava bombaları və hava raketləri, simulyatorlar və təlim sistemləri ilə yanaşı, yerüstü hərbi təlim avadanlıqları da nümayiş olunur.

İtaliya da sərgidə ilk dəfə iştirak edir. Bu ölkənin "Exclases Group" şirkəti aviasiya və kosmik sənaye üzrə marketinq, satış və texniki ekspertiza sahələrində ixtisaslaşmış müəssisədir. "Exclases Group" 2008-ci ildən etibarən "Leonardo Helicopters" şirkətinin etibarlı tərəfdaşı kimi hava gəmilərinin və avadanlıqların satışı və marketinqi ilə məşğul olur. Sərgidə şirkətə məxsus olan "Agusta Westland 109" helikopteri təqdim edilir.

Sərginin açıq havadakı ərazisində Azərbaycan Müdafiə Nazirliyi tərəfindən də zirehli texnikalar nümayiş etdirilir. Türkiyənin "Baykar" şirkəti açıq havada da öz məhsullarını təqdim edir. Ziyarətçilər şirkətin istehsalı olan "Bayraktar TB2" və "Bayraktar KALKAN" məhsulları ilə yaxından tanış ola bilərlər.

# Heydər Əliyev Fondu: xeyirxahlıq və humanistlik rəmzi



Yaranmış reallıqlar dövrün tələbinə uyğun olaraq qarşıya yeni hədəflər qoyub. Azərbaycan artıq dünyaya öz sözünü deyən, qalib dövlət kimi səs salıb. Özünü təsdiq etmiş, gələcək inkişaf imkanlarına malik güclü dövlət olduğunu sübut edib. Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin Azərbaycan üçün əhəmiyyətini vurğulamaq, milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədi ilə yaradılmış Heydər Əliyev Fondu da ölkəmizin inkişafına öz töhfələrini verir. Fəaliyyətə başladığı zamandan bu günə qədər həyata keçirdiyi layihələrin, tədbirlərin hər biri Azərbaycanın tərəqqisi və xalqın rifahının yaxşılaşmasına xidmət edir. Genişmiqyaslı proqram və layihələri elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji və s. sahələri əhatə edir. İnsanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardım etmək, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi töhfələrini verən Heydər Əliyev Fondunun demək olar ki, bütün sahələrdə rellaşdırdığı layihələr böyük əhəmiyyət kəsb edib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın hər bir layihəsi Azərbaycanın işıqlı sabahına əvəzsiz töhfədir. Yarandığı zamandan bu günə qədər zəngin, genişmiqyaslı layihələri ilə diqqəti cəlb edib. Reallaşdırdığı layihələrin hər birində cəmiyyətdə bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, Azərbaycan xalqının mədəni ənənələri və mədəniyyətininin inkişafı və təbliği, insanların sağlamlığı diqqətdə saxlanılıb. Bu layihələr nəcib və xeyirxah əməllərdən yaranıb.

## ƏHMƏDLİ QƏSƏBƏ MƏSCİDİNİN ÖZÜNƏMƏXSUS MEMARLIĞI

Xatırladaq ki, Heydər Əliyev Fondunun tarixi, mədəni və dini irsin qorunmasına xidmət edən layihələri Azərbaycanın sərhədləri ilə məhdudlaşmır. Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı.

Heydər Əliyev Fondu ölkə daxili dini abidələrin bərpa və təmirinə böyük önəm verir. Görülən işlərin davamı olaraq, Əhmədli qəsəbəsindəki 120 yaşlı məscid əsaslı təmirdən sonra istifadəyə verilib. 1904-cü ildə inşa olunmuş məsciddə təmir və bərpa işləri Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilib. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və ailə üzvləri sentyabrın 23-də Əhmədli qəsəbə məscidində olublar.

Qəsəbə sakinlərinin müraciətinə dərhal reaksiya verən Heydər Əliyev Fondunun təşəbbüsü ilə məscidin fasadında və ətrafında təmir-bərpa işləri aparılıb. Burada kişi və qadınlar üçün nəzərdə tutulmuş ibadət yerləri, dəstəmaz otaqları, mərasim evi əsaslı təmir olunub, məscidin ətrafı abadlaşdırılıb. Eyni zamanda, Əhmədli qəsəbəsinin əsas girişində və qəsəbənin bir sıra mərkəzi küçələrində tarixi görkəm qorunmaqla abadlaşdırma işləri görülüb, qənbər daşları düzülüb, yaşıllıq zolaqları salınıb. Təmir olunan küçələrdə yeni kanalizasiya xətləri də çəkilib. Bir sıra fərdi evin dam örtüyü, darvazaları dəyişdirilib. Qəsəbədə yerləşən abidə kompleksi və ətrafındakı park yenidən qurulub, yaşıllıq sahələri salınıb. Görülmüş işlərdə qəsəbənin özünəməxsus memarlığı qorunub saxlanılıb.

Bu gün ölkəmizdə 2200-dən artıq məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyətdədir. Əlbəttə ki, bu böyük göstəricidir.

## DİNİ ZİYARƏTGAHLARIMIZA YENİ HƏYAT

Bəli, dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür. Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun layihələri sırasında "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib. Cənab İlham Əliyevin bildirdiyi kimi, bu gün müstəqil Azərbaycan istənilən məsələ ilə bağlı fəxr edə bilər: "Həm siyasi, həm beynəlxalq nüfuzumuz artır, həm də iqtisadi inkişaf göz qabağındadır və dinlərarası, millətlərarası münasibətlər ən yüksək səviyyədə təmin olunur".

Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən sabitliyin məntiqi nəticəsi olaraq bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və yaşadılması, tarixi-dini abidələrimizin bərpası, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsinə də xüsusi diqqət ayırır. Dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Söz yox ki, Azərbaycan dünyəvi, müasir, dünyaya açıq olan dövlət olmaqla yanaşı, milli dəyərlərə, adət-ənələrinə də böyük hörmətlə yanaşan bir ölkədir. Dövlət başçısının mütəmadi olaraq din xadimləri ilə görüşməsi, dini konfessiyalara maddi yardımlar edilməsi, dini ibadət yerlərinin təmir-bərpa olunması fikirlərimizə əsas verir. Təbii ki, bu Azərbaycanın iqtisadi gücü olması ilə yanaşı, ölkədə dini dözümlüyün, əmin-amanlığın hökm sürməsi də mühüm faktorlar sırasındadır.

## "TƏBİƏT NAMİNƏ BİRLƏŞ, HƏYAT NAMİNƏ BİRLƏŞ!"

Sentyabrın 23-də Bakının Xətai rayonundakı "Gənclik" parkında ağacəkmə aksiyası keçirilib. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, Fondun vitse-prezidenti Leyla Əliyeva və ailə üzvləri tədbirdə iştirak ediblər. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin və COP29 könüllülərinin qatıldığı aksiyada 1000 ədəd Eldar şamı ağacı əkilib. Qeyd edək ki, "Gənclik" parkı Heydər Əliyev Fondunun təşəbbüsü ilə salınıb. Ərazisi 43 hektar olan parkda yaşıllıq zolaqları ilə yanaşı, əyləncə və istirahət sahələri yaradılıb.

Xatırladaq ki, 2019-cu il noyabrın 11-də "Gənclik" parkı yeni salınarkən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak etmişlər. Dövlətimizin başçısı bir zamanlar baxımsız olan bu ərazidə abadlaşdırma işlərinin aparılması ilə bağlı müvafiq tapşırıqlar vermişdi.

2021-ci il avqustun 26-da istifadəyə verilən "Gənclik" parkı insanların rahat istirahət ünvanı olmaqla yanaşı, eyni zamanda, paytaxtın ekoloji mühitinə öz töhfəsini verir.

## BÖYÜK QAYIDIŞA HEYDƏR ƏLİYEV FONDUNUN TÖHFƏLƏRİ

Bildiyimiz kimi, Ermənistanın otuz ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal altında olan ərazilər darmadağın edilib, erməni vandallığına və təcavüzünə məruz qalıb, o məkanlardakı misilsiz mədəni irsimizə çox böyük ziyan dəyib. Yüzlərlə tarixi abidənin - muzeylərin, incəsənət qalereyalarının, məscidlərin, qəbiristanlıqların yerlə-yeksan və talan edilməsi, təhqir olunması erməni əməllərinə bir daha dünyaya təqdim etdi.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2020-ci il dekabrın 8-də Fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdi. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə regionda icrasına başlanılan layihəyə yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olunublar. Hazırda bərpa prosesinə Avstriya, Böyük Britaniya, Bolqarıstan, İtaliya, Latviya, Rusiya, Türkiyə, Gürcüstan və digər ölkələrdən mütəxəssislər cəlb edilib. Abidələrin yenidən qurulması zamanı onların ilkin, yəni autentik simasının pozulmaması prinsipi əsas götürülür. Artıq bir neçə abidə təmir və bərpadan sonra istifadəyə verilib.

## ZƏFƏRİMİZDƏN YARANAN UNİKAL ƏSƏRLƏR DÜNYAYA İSMARICDIR

Bəli, bu gün dağıdılmış ərazilərin bərpası və yenidən qurulması istiqamətində abadlıq-quruculuq işlər aparılır. Bu Böyük QAYIDIŞA Heydər Əliyev Fondu da töhfələrini verir. Belə ki, Şuşada Cıdır düzündə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" musiqi festivalı keçirildi. "Xarıbülbül" musiqi festivalı çərçivəsində Heydər Əliyev Fondu tərəfindən beynəlxalq incəsənət festivalı təşkil olundu. Rəssamlar Ermənistanın işğalından azad olunan ərazilərimizdə gördüklərini, yaşadıqları hissləri festival üçün hazırlanan xarıbülbül maketləri üzərinə köçürüb, dünyaya mühüm ismarıc verən əsərlər təqdim etmiş oldular. Bu layihənin əsas məqsədi müxtəlif ölkələri təmsil edən sənətkarlar vasitəsilə 30 ilə yaxın müddətdə işğal altında olan ərazilərimizdəki dağıntının miqyasını, tarixi abidələrimizə, milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə, təbiətimizə qarşı qəsbkarlığı geniş beynəlxalq auditoriyaya nümayiş etdirmək idi. Əlbəttə ki, məqsəd reallaşmış oldu. Heydər Əliyev Fondunun Şuşada reallaşdırdığı layihələri sırasında Üzeyir Hacıbəylinin heykəlinin açılışını qeyd etməliyik. Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmiş heykəl Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən hazırlanıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpası və yenidənqurma işləri Heydər Əliyev Fondu tərəfindən aparılıb.

## VƏTƏN MÜHARİBƏSİNİN XRONİKASI

Vətən müharibəsinin xronikasını təqdim edən www.44days.info saytı Heydər Əliyev Fondunun dəstəyi ilə yaradıldı. 8 başlıqdan ibarət olan bu portal 44 günlük Vətən müharibəsinin salnaməsini Azərbaycan, rus və ingilis dillərində izləyicilərə çatdırır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, dövlət başçısının müxtəlif beynəlxalq media qurumları və xəbər agentliklərinə müsahibələri, tvitləri, videokonfransları, onlayn görüşləri və müxtəlif ölkələrin prezidentləri və rəsmiləri ilə telefon danışıqları, yerli və beynəlxalq qurumların, müxtəlif ölkələrin və təşkilatların nümayəndə heyətləri ilə keçirilən qəbullar və s. portalda əksini tapıb.

Bütün bunlarla yanaşı Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.shusha.today portalını da qeyd etməliyik. Portal şəhərdə baş verən hadisələri dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə ingilis dilində yaradılıb. Portal 7 bölmədən ibarətdir. "Bizim Şuşa" adlı bölmədə şəhərin yarandığı gündən işğal olunduğu dövrə qədərki tarixi, ermənilərin Şuşa şəhərini işğal etməsi, 44 günlük müharibə, Şuşanın işğaldan azad edilməsi və Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bu münasibətlə xalqa müraciəti yer alıb. Heydər Əliyev Fondu Qarabağda yalnız bərpa layihələri həyata keçirmir. Ölkəmizdə aparılan quruculuq işlərinə də töhfə verməklə məqsədini reallaşdırır.

Bu gün Azərbaycanda, eləcə də onun hüdudlarından kənarda fəaliyyəti ilə tanınan və nüfuz qazanan Heydər Əliyev Fondu əsrimizin qabaqcıl və humanizm prinsiplərini bəşər övladına təqdim etmək gücündə olan qurum kimi ölkəmizdə, eləcə də beynəlxalq miqyasda hörmətlə qarşılanır. Fondun fəaliyyəti dövründə həyata keçirilən genişmiqyaslı layihələr insanların ictimai-mədəni, sosial həyatının yüksəldilməsi və inkişafı baxımından birmənalı olaraq çoxsaylı insanların həyat tərzində dönüş yaradıb. Bunların hər biri Fondun qısa zamanda məqsəd tək qarşıya qoyduğu amalın reallaşması nəticəsində baş tutub. Firavanlığı yaratmaq, həyat tərzində sağlam mühiti formalaşdırmaq, insanların fiziki sağlamlığına diqqət yetirmək, sülhün, əmin-amanlığın çarçısına çevrilmək, müasir dövrün tələblərinə və gələcəyin təminatı olan təhsilə, elmə böyük diqqət ayırmaq fondun məqsədi olaraq özünü büruzə verir.

***Nəzakət ƏLƏDDİNQIZI***






# Qafqazda sülhün və müharibənin açarı

Səudiyyə Ərəbistanında dərc olunan "Asharq Al-Awsat" nəşri Ermənistan və Azərbaycan arasında yeni müharibənin qaçılmaz olduğunu yazıb. Əlavə edib ki, etnik və dini zəmində gərginlik hər an arta bilər: "Ölkələr arasında avtomobil və dəmir yolu əlaqələrini bərpa etmək üçün "Zəngəzur dəhlizi" layihəsi sülh yolu ilə nizamlanma imkanı təklif edir. Qarabağdakı son erməni əsgəri və separatçı, qondarma qurum Azərbaycan ordusunun apardığı lokal antiterror tədbirləri nəticəsində ləğv edildikdən sonra bölgəyə rəsmi İrəvan və onun xaricdəki lobbiləri tərəfindən qanunsuz olaraq məskunlaşdırılmış ermənilər Ermənistana köçdü. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev hərbçilər qarşısında çıxışı zamanı bəyan edib ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaradılıb: "Biz ərazi bütövlüyümüzü bərpa edirik, torpaqlarımızı geri qaytarırıq".

İlham Əliyev həmçinin bildirib: "Zəngəzur dəhlizinin yaradılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. Amma bunu güclə həll etmək istəmirik". Bu bəyanatlar, eləcə də regionun son illərdə şahidi olduğu sürətli geosiyasi transformasiyalar Ermənistan və Azərbaycan arasında yeni müharibənin niyə demək olar ki, qaçılmaz olduğunu izah edir. Analitiklər razılaşırlar ki, müharibə regional və beynəlxalq güclərin öz təsirlərini gücləndirməyə çalışdığı Qafqaz regionunda köhnə yatmış münaqişələri daha da gücləndirəcək.

## Qırx min itki

Bölgənin coğrafiyasına və tarixinə qısa nəzər salmaq vəziyyətin mürəkkəbliyini, baş verən dəyişiklikləri, eləcə də hər an kəskinləşə biləcək etnik və dini ziddiyyətləri anlamaq üçün kifayətdir. Azərbaycan və Ermənistan arasında Qarabağ uğrunda gedən müharibələrdə 40 mindən çox insan həlak olub. Bir milyondan çox insan məcburi köçkün vəziyyətinə düşüb. Region 50-dən çox dildə danışan və üç İbrahim dininə etiqad edən mədəniyyətlərin və xalqların qarışığıdır. Bu xalqlar qədim zamanlardan qanlı qarşıdurmaların və etnik təmizləmələrin başlandığı 20-ci əsrin əvvəllərinə qədər, xüsusən də Sovet İttifaqının dağılmasından sonra yan-yana yaşayıblar.

İrəvan bu gün yalnız xristian ermənilərin yaşadığı Ermənistanın paytaxtıdır. XIX əsrdə İrəvan əhalisinin böyük əksəriyyəti o zaman tatar adlanan azərbaycanlılar (türk və müsəlman mənşəli) idi. Azərbaycanın paytaxtı Bakıda 20-ci əsrin əvvəllərində ruslar, ermənilər və yəhudilərlə yanaşı digər qeyri-azərbaycanlılar əhalinin üçdə birini, Gürcüstanın paytaxtı Tiflisdə isə ermənilər əhalinin 20%-ni təşkil edirdi. Bu gün azərbaycanlılar İran əhalisinin təqribən 48%-ni təşkil edir və sistematik repressiyalardan əziyyət çəkirlər ki, bu da iki ölkə arasında gərginliyə səbəb olur. Hətta 2023-cü ildə münasibətlərin qısamüddətli gərginləşməsi də müahidə edilmişdi.



## "Qara bağ"ın böhranı

"Qarabağ" adının özü bu regionun çətin tarixini yaxşı əks etdirir. Azərbaycan sözlərinin birləşməsindən yaranıb və "qara bağı" mənasını verir. Bu, Azərbaycanın sərt çöl və vadilərindən fərqli yaşıl, münbit ərazinin metaforasıdır. Bu bölgə orta əsrlərin sonlarından başlayaraq, öz növbəsində əvvəlcə Səfəvi, Afşar, Qacar imperiyalarının tərkibində olan, sonra isə Rusiya çarına tabe olan Azərbaycan xanlıqlarının sülalələrinin nəzarəti altında bir növ muxtariyyətə malik idi. Baxmayaraq ki, 20-ci əsrin əvvəllərində Sovet hakimiyyəti Qarabağın dağlıq ərazisinə çoxlu sayda erməniləri köçürməklə burada demoqrafik vəziyyəti dəyişdirə bildi, amma buranı Ermənistana birləşdirə bilmədi. Amma edəcəyini etdi, Qarabağın dağlıq hissəsində, ermənilərin çoxluq təşkil etdiyi ərazilərdə Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) yarada bildi.

Azərbaycan bu gün regionda artan gücdür. Böyük neft ehtiyatlarına və strateji əhəmiyyətli mineral ehtiyatlara malikdir. Azərbaycana hazırda rəhbərlik edən İlham Əliyev qonşu ölkələrlə bərabər, dünyanın güc mərkəzləri ilə mehriban və səmərəli əlaqələrə malikdir və Rusiya, Türkiyə kimi böyük dövlətlərlə strateji müttəfiqlik münasibətlərinə sahibdir. Azərbaycan Şərqlə, Qərblə, Şimal və Cənubla etimada söykənən əlaqələr qurub, xarici siyasətində balans yarada bilib.

Son hadisələr göstərir ki, Azərbaycan öz iqtisadi maraqlarını Ermənistandakı coğrafi ambisiyalardan üstün tutur. Zəngəzur dəhlizinin açılmasına, nəqliyyat və kommunikasiya arteriyasının işlək hala gəlməsinə çalışır. Ermənistan isə regionda gərginliyi daha da artırmaq, dünyanın güc mərkəzlərini regiona cəlb etməklə sülh planlarını əngəlləmək istəyir. Zəngəzur dəhlizinə qarşı "Dünyanın kəsişməsi" layihəsini ortaya atması da İrəvanın çirkin məqsədlərindən xəbər verir. 44 günlük müharibədən ötən müddət ərzində Zəngəzur dəhlizi region dövlət başçılarının masasında qalmaqdadır və ölkələr arasında avtomobil və dəmir yolu əlaqələrinin bərpasına başlamaq üçün "yaşıl işıq"ın yanmasını gözləyirlər.

Tbilisidə keçirilən beynəlxalq forumda "Dünyanın kəsişməsi" layihəsinin müzakirəsi zamanı Ermənistanın baş naziri Paşinyan deyib ki, Cənubi Qafqazın sülhə ehtiyacı var və bu, dövlətlərin açıq sərhədlərlə yaşadığı, aktiv iqtisadi, siyasi, mədəni və insani münasibətlərin mövcud olduğu, təcrübə və ənənələrə malik olduğu bir dövlətdir. Bütün məsələlərin diplomatik və dialoq yolu ilə həlli real dünyadır və gördüyünüz kimi, bütün bunlar, yeni açıq sərhədlər, iqtisadi, siyasi, mədəni əlaqələr yollar olmadan mümkün deyil. Ermənistanın təqdimatına görə, bu layihə Gürcüstanla üç açıq və İranla yeni cənub keçidindən əlavə, Ermənistanın Türkiyə və Azərbaycan sərhədlərində keçidlərin açılmasını nəzərdə tutur.

## Zəngəzur dəhlizi isə...

Bu dəhlizin açılması regional dövlətlərin birləşməsini təmin edəcək. Həmçinin sovet dövründə salınmış dəmir yolu relslərinin bərpası və regionun əsas şəhərlərini (Təbrizdən Tiflisə, Bakıdan İrəvana və Türkiyəyə) birləşdirən yeni yolların çəkilməsi də nəzərdə tutulur. Bu, Fars körfəzi, Xəzər, Aralıq və Qara dənizlərin limanlarına çıxışı asanlaşdıracaq. Məhsullarını qonşularına ixrac etmək istəyən Türkiyə və İran başda olmaqla, regionun bütün ölkələri bu layihədə maraqlıdır. Onun həyata keçirilməsi Ermənistanla Azərbaycan arasında davamlı sülhün əldə olunmasından asılıdır. Bu isə Ermənistanın təxribatçı əməlləri sayəsində əngəllənir.

Zəngəzur dəhlizi barədə üçtərəfli bəyanatın 9-cu bəndində də açıq-aydın yazılıb. Ermənistan ərazisindən keçərək Azərbaycan və onun tərkib hissəsi olan Naxçıvan arasında müstəqil əlaqələrin yaradılması da qeyd olunub. 10 noyabr bəyanatının 9-cu maddəsində regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi nəzərdə tutulur. Bu bənddə ikinci cümlə Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan arasında nəqliyyat əlaqəsinin təşkilindən və Ermənistanın hər iki istiqamətdə maneəsiz hərəkətin təhlükəsizliyinə zəmanətindən bəhs edir. Amma razılaşmadan 4 ilə yaxın vaxt ötsə də, tərəflər nəqliyyat dəhlizlərinin açılmasında heç cür razılığa gələ bilməyib. Erməni liderləri dəfələrlə deyiblər ki, nə Azərbaycan, nə də Türkiyə tərəfi Meğri vasitəsilə Ermənistanın yurisdiksiyasından kənarda olacaq dəhliz almayacaq.

Erməni ekspertlər düşünürlər ki, "Zəngəzur dəhlizi" layihəsinin reallaşması ölkənin İranla birbaşa ticarət aparmaq imkanına əngəl olacaq, çünki dəhlizə başqa dövlətlər nəzarət edəcək. Amma üçtərəfli bəyanat nəticəsində regionda kommunikasiyaların açılacağı və bunun sayəsində Ermənistanda iqtisadiyyatın canlanacağı ümidlərini doğurub. Ölkənin Baş naziri Nikol Paşinyan bəzi çıxışlarında regionda nəqliyyat kommunikasiyalarının açılmasının zərurətini vurğulayıb və bunun, xüsusilə Rusiya ilə əlaqələrə müsbət təsir göstərəcəyindən danışıb.

Bu gün Azərbaycan təkcə böyük hərbi üstünlüyə malik deyil, həm də əmindir ki, qarşıya qoyduğu məqsədlərə çatmaq üçün yeni hərbi addımlar atsa belə, regional və beynəlxalq güclər barmaqlarını tərpətməyəcək. Üstəlik, iki ölkə arasında mədəni və dil əlaqələrini nəzərə alaraq, Türkiyə Azərbaycanın razılığı olmadan Ermənistanla münasibətləri tam normallaşdırmayacaq. Rusiya da öz növbəsində artıq Bakı ilə münasibətlərini İrəvanı qorumaq naminə qurban verməyə hazır deyil, bunu son hərbi münaqişə də sübut edir. Azərbaycan bunu nəinki qazandı, hətta Qarabağı öz nəzarətinə qaytardı.

**V.VƏLİYEV**

# Parlament Azərbaycanın inkişaf tarixinə yeni uğurlar gətirəcək

30 ildən sonra ərazi bütövlüyü tam təmin edilib, suverenliyi bərpa olunan Azərbaycan dövləti parlamentə ilk seçkilər keçirdi. Sentyabrın 1-də baş tutan seçkilərdə xalqın yüksək fəallığı yaşandı. Hər kəs sevincli və qürurlu idi. Çünki ölkəmizin hər yerində, o cümlədən Xankəndidə, Şuşada, Qubadlıda, Xocalıda, Kəlbəcərdə və digər işğaldan azad edilən ərazilərdə parlament seçkiləri keçirildi. Seçki təbliğatını yüksək səviyyədə quran, öz seçki platformasını cəmiyyətə reallıq üzərində quran namizədlər deputat seçildilər. Təbii olaraq seçkilərin budəfəki əsas qalibi xalqın partiyası olan Yeni Azərbaycan Partiyası oldu. YAP parlamentə əsas yerlərə sahib olmaqla Cənubi Qafqazın ən böyük və lider partiyası olduğunu nümayiş etdirdi. YAP-ın parlamentdə deputat yerlərinə daha çox sahib olması bir daha onu təsdiq etdi ki, YAP alternativsiz partiyadır, Ulu Öndərimiz Heydər Əliyevin qurduğu və bu gün Fateh Sərkərdə, Prezidentimiz İlham Əliyevin rəhbərlik etdiyi partiya bundan sonra da qələbələrini təkrarlayacaq. Yeni Azərbaycan Partiyasının parlament seçkilərində parlaq qələbə qazanması dünyanın əksər KİV-lərinin diqqətinə və müsbət xarakterli informasiyalar yaymalarına səbəb olub. Dünyanın ən nüfuzlu xəbər agentliklərindən biri olan Sinxuanın "Azərbaycanın hakim partiyası parlamentdə üstünlüyünü qoruyub" sərlövhəli məlumatında Mərkəzi Seçki Komissiyasının (MSK) ilkin nəticələrinə əsasən, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə 68 yer qazandığı qeyd olunub. Bildirilib ki, Mərkəzi Seçki Komissiyası 5895 məntəqə üzrə səsvermənin ilkin nəticələrini açıqlayıb. Səsvermədə seçici fəallığının 37,27 faiz təşkil etdiyi qeyd olunub. Çin Mərkəzi Televiziyasının (CCTV) internet səhifəsində, Çin Kommunist Partiyasının rəsmi nəşri olan "Jenmin Jibao" qəzetində, dünya üzrə milyonlarla oxucusu olan nüfuzlu "China Daily" qəzetinin internet səhifəsində, digər nüfuzlu xəbər portallarında mövzu ilə bağlı materiallarda da növbədənkənar parlament seçkisində Yeni Azərbaycan Partiyasının qələbəsindən söz açılıb. Dost, qardaş Türkiyənin Anadolu Agentliyi, TRT media qurumu, "Milliyet", "Cumhuriyyet", "Son dakika", "Haberler.com", "Ensonhaber", "Son dakika", "Haber Global" kimi bir çox media qurumları ölkəmizdə keçirilən parlament seçkiləri ilə bağlı geniş və əhatəli məqalələr dərc edib, reportajlara yayımlayıblar. Yazılan məqalələrdə, paylaşılan verilişlərdə Azərbaycanda baş tutan parlament seçkilərinin azad və demokratik şəraitdə keçirildiyi qeyd edilir və seçicilərin dəstək verdiyi partiyanın Yeni Azərbaycan Partiyası olduğu vurğulanır.



## Parlament seçkilərində bir sıra yeniliklər tətbiq olundu

Mövcud fakt ondan ibarətdir ki, sentyabrın 1-də baş tutan parlament seçkiləri bir sıra yenilikləri və dəyişiklikləri ilə yadda qaldı. Əvvəlki seçkilərdə cəmi 600-a qədər veb-kameralara fəaliyyət göstərmişdirsə, budəfəki seçkilərdə onların sayı 1000 çatdırılmışdır. İşğaldan azad edilən ərazilərdə daxil olmaqla bütün ölkə ərazisində seçkilər baş tutdu və 125 seçki dairəsi üzrə 6478 məntəqədə xalq öz iradəsini nümayiş etdirdi. İşğaldan azad edilən ərazilərdə seçki məntəqələrinin sayı isə 55 -ə çatdırılmışdır. Azad edilən ərazilərdə səsvermə hüququna malik seçicilərin sayı isə 42 mindən artıq idi. Deputatlığa namizədlərin sayı isə 990 nəfər idi ki, onlardan 305 nəfərin namizədliyi siyasi partiyalar tərəfindən, 684 nəfərin namizədliyi öz təşəbbüsü ilə, 1 nəfərin namizədliyi isə təşəbbüs qrupları tərəfindən irəli sürülmüşdü. Seçkilərlə əlaqədar 598 beynəlxalq müşahidəçi akkreditasiyadan keçmişdi. Onlar 51 beynəlxalq qurumu və 69 ölkəni təmsil edirlər. Qeydiyyatdan keçmiş yerli müşahidəçilərin sayı isə 112 min 749 nəfər idi. Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə, parlament seçkilərində xalqın partiyası olan YAP 68 deputat yerinə sahib olub. 45 nəfər bitərəf namizəd öz dairələrində qalib gəlib. Bundan əlavə, Vətəndaş Həmrəyliyi Partiyası 3, Ədalət, Haqq və Demokratiya Partiyası 2, Böyük Azərbaycan Partiyası 1, Respublikaçı Alternativ 1, Milli Cəbhə Partiyası 1, Demokratik Maarifçilik Partiyası 1, Demokratik İslahatlar Partiyası 1, Böyük Quruluş Partiyası 1 və Milli İstiqlal Partiyası 1 nəfərlə təmsil olunacaq. Beləliklə, Milli Məclisdə 10 siyasi partiya və müxalifətin 12 nümayəndəsi təmsil ediləcək. Bütün bunlar çoxpartiyalı seçim əsasında parlamentin formalaşması deməkdir. Təbii ki, azad və demokratik şəkildə keçilən parlament seçkilərində qalib gəlməklə formalaşan Milli Məclis səmərəli və keyfiyyətli iş fəaliyyəti ilə xalqımıza və dövlətimizə xeyir gətirmiş olacaq. Sentyabrın 1-də həm də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər keçirildi. Seçkiləri müşahidə edən yerli və xarici müşahidəçilərin birmənalı mövqeyi ondan ibarətdir ki, seçkilər Azərbaycan qanunvericiliyinə uyğun, azad və demokratik şəkildə keçirilib. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 45 seçki dairəsi üzrə 331 seçki məntəqəsində keçirilib. Muxtar respublika üzrə ümumi seçicilərin sayı 288 356 nəfər olub. Seçki günü 18 yaşı tamam olan seçicilərin muxtar respublika üzrə sayı 31, seçkilərdə ilk dəfə iştirak edən seçicilərin sayı isə 3891 nəfər olub. Ali Məclisə seçkilərdə deputat mandatı uğrunda 187 nəfər namizəd mübarizə aparıb. Onlardan 41 nəfəri qadındır. Ali Məclisə seçkilərdə müşahidəçi qismində iştirak etmək üçün ümumilikdə 452 nəfər akkreditasiyadan keçib. Azad və demokratik şəraitdə keçən Naxçıvan Ali Məclisinə seçkilərdə 45 nəfər qalib gəlib.

## Parlamentin ilk iclası yeni çağırışlarla yadda qaldı

Sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib. Milli Məclisin ən qocaman deputatı kimi iclasa sədrlik edən Ziyad Səmədzadə yeddinci çağırış Milli Məclisin ilk iclasını açıq elan edib və Prezident İlham Əliyevin Milli Məclisin ilk iclasında iştirakını, dəyərli fikirlərini bölüşməsini və proqram xarakterli tövsiyələrini verməsini parlamentin tarixinə yazılan ən mühüm hadisələrdən biri kimi dəyərləndirib. Z.Səmədzadə Dahi Öndərimiz Heydər Əliyevin yolunu layiqincə davam etdirərək Azərbaycanı zirvələrə yüksəltdiyinə, dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirdiyinə görə deputatlar adından Prezident İlham Əliyevə təşəkkürünü bildirib və Ona gələcək işlərində yeni böyük uğurlar arzulayıb. YAP-dan Milli Məclisə seçilmiş deputatlar parlamentdə çoxluq hüququndan istifadə edərək və partiya Sədrinin tövsiyəsini nəzərə alaraq, Milli Məclisin sədri vəzifəsinə deputat Sahibə Qafarovanın namizədliyi irəli sürülüb və gizli səsvermə ilə o parlamentin sədri seçilib. Sahibə Qafarova çıxış edərək parlamentin sədri kimi öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bütün bilik və bacarığını sərf edəcəyini söyləyib və YAP-ı Milli Məclisin rəhbərliyində təmsil edərkən güclü və nüfuzlu qanunvericilik orqanı barədə partiyanın ideyalarını reallaşdırmağa çalışacağını vurğulayıb: "Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan YAP Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətimizin siyasi inkişafında, dövlətimizin strateji hədəflərinin əldə edilməsində, sosial həmrəyliyin möhkəmləndirilməsində önəmli rol oynayır. 2024-cü ilin parlament seçkilərinin ölkəmizin demokratik inkişafı yolunda irəliyə doğru mühüm addım olduğunu, ölkəmizin siyasi sisteminin yetkinliyini və cəmiyyətimizdə cərəyan edən demokratik prosesləri sabit, davamlı olduğunu göstərir". S.Qafarova seçkilərin ən yüksək standartlara uyğun şəkildə azad, ədalətli və şəffaf şəraitdə keçirilməsinin xalqımızın iradəsinin dəqiq ifadə olunmasını təmin etdiyini deyib. Parlamentin iclasında Milli Məclis sədrinin birinci müavininin seçilməsi məsələsinə baxılıb və açıq səsvermə yolu ilə Əli Cavad oğlu Əhmədov parlament sədrinin birinci müavini seçilib. Ziyafət Abbas oğlu Əsgərov, Musa Cəfər oğlu Qasımlı və Rafael Baba oğlu Hüseynov Milli Məclis sədrinin müavinləri seçiliblər. İclasda həmçinin komitə sədrləri və sədr müavinləri də seçilib. Beləliklə, parlamentin ilk iclası uğurla başa çatıb. İclasda uzun müddətdə yaddaşlardan silinməyəcək və kitablarda əksini tapacaq hadisə isə Fateh Sərkərdə, Prezident İlham Əliyevin çıxışı oldu.

## Prezident növbəti 5 il üçün parlamentin hansı işlər görməli olduğunu göstərdi

Parlamentin ilk iclasında iştirak edən Prezident İlham Əliyev çıxışında deputatları təbrik edib və əmin olduğunu bildirib ki, Milli Məclis və onun deputatları öz işi ilə ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini bundan sonra da verəcək və Azərbaycanın dayanıqlı inkişafı təmin ediləcək: "Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu". Prezident İlham Əliyev 44 günlük Vətən savaşından və 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatlarından danışıb. Bildirib ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır: "30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz".

Prezidentimiz qarşıda duran vəzifələrdən və görülməsi vacib olan işlərdən danışarkən qeyd edib ki, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi: "Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Hər kəs yaxşı bilir Minsk qrupu nə üçün yaradılmışdır - Qarabağ münaqişəsinin həlli üçün. Qarabağ münaqişəsi həll olunub, tam və birdəfəlik. Ermənistanın rəsmi dairələri də öz bəyanatları ilə sanki bunu etiraf edirlər. Amma bununla paralel olaraq, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq, ancaq bir məqsədi güdə bilər ki, yenidən bizə qarşı ərazi iddiaları baş qaldırsın. Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni, biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur".

Ardı Səh. 7

# Parlament Azərbaycanın inkişaf tarixinə yeni uğurlar gətirəcək

Əvvəli Səh. 6

Ali Baş Komandan, Fateh Sərkərdə İlham Əliyev ideoloji təhlükəsizliklə bağlı məsələlərdə daim diqqətli olmağın vacibliyini söyləyib: "Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu, bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki, edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında. Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir - bizim dostumuz kimdir, düşmənimiz kimdir. Əsas meyar ölkələrin bizim suverenliyimizin bərpasına olan münasibətidir, daha başqa uzağa getmək lazım deyil. Bizi kim dəstəkləyib, suverenliyimizin bərpa edilməsində kim təbrik edib? Bu, bizim dostlarımızdır. Buna qarşı kim çıxıb və kim çıxır? Bunlar bizə dost ola bilməzlər. İşğal dövründə bu, o qədər də aydın deyildi. Yəni, bizim üçün aydın olsa da, geniş ictimaiyyət üçün aydın deyildi. Çünki vaxtilə xarici təbliğat Azərbaycanda o qədər kök salmışdı, özü də bir mənbədən yox, bir neçə mənbədən. Bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr çalışırdılar ki, Azərbaycanda ictimai fikirdə söz sahibi olsunlar. İstəyirdilər ki, onların əlaltıları vasitəsilə bizim media məkanında istənilən təxribatı ortaya ataraq, vəziyyəti öz xeyrinə dəyişdirsinlər. Yəni, belə cəhdlər çox olub, amma güclü iradə və xalqımızın birliyi buna imkan verməyib. Bu gün də bu davam edir. Ona görə yenə də deyirəm, çox sadə meyarlar var. Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər? Ona görə hər şeyin, necə deyərlər, açıq-aydın görünməsi bu gün daha aydındır. Çünki yenə də deyirəm, işğal dövründə bizə qarşı bu qədər açıq, təxribat xarakterli addımlar olmamışdı. Çünki o işğal bizə qarşı olan qüvvələri tam qane edirdi - Azərbaycan dövləti daim təzyiq altında olsun, daim hansısa vasitəçilərə möhtac olsun, daim xalqımız mənəvi əzab çəksin, qaçqınlıq əzabı. Torpaqlarını itirmiş xalqın duyğularını başa düşmək üçün böyük ağıla malik olmaq lazım deyil. Yəni, biz bu bəladan canımızı qurtardıq və bizə qarşı olan anti-Azərbaycan qüvvələrin maskaları dərhal yırtıldı və bu gün də biz bunu görürük. Mən hesab edirəm ki, ad çəkməyə ehtiyac yoxdur, hər kəs hər şeyi görür. Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq".

*İLHAM ƏLİYEV*

# Daşkənddə Azərbaycan-Özbəkistan Media Forumu keçirilib






Daşkənddə "Rəqəmsal əsrdə həqiqət axtarışı: dezinformasiya ilə mübarizə" mövzusunda Azərbaycan-Özbəkistan Media Forumunun açılışı olub. SİA xəbər verir ki, Forum 2023-cü ilin avqustunda Özbəkistan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında media sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsi" çərçivəsində keçirilir.

Tədbirdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Audiovizual Şurasının sədri İsmət Səttarov, Azərbaycan Prezidenti Administrasiyasının Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov, Mətbuat Şurasının sədri Rəşad Məcid, həmçinin telekanalların və informasiya agentliklərinin nümayəndələri, o cümlədən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev iştirak edirlər.

Forumun açılışında çıxış edən Özbəkistan Prezidentinin mətbuat katibi Şerzod Əsədov media sahəsində iki ölkə arasında fəal təmasların və sistemli dialoqun inkişaf etdiyini, fikir və təcrübə mübadiləsinin genişləndiyini, bunun real nəticələrə gətirib çıxardığını qeyd edib. O əlavə edib: "Qlobal təlatümlərin yaşandığı indiki dövrdə obyektiv məlumatların verilməsində ciddi təhlükələr var. Biz bunu hətta özlərini azadlıq etalonu kimi təqdim edən ölkələrdə də görürük. Bütün bunlar dünyada informasiya istehlakçılarına mənfi təsir göstərir. Belə bir vəziyyətdə bizim qardaş Azərbaycanla əməkdaşlığımız xüsusi əhəmiyyətə malikdir. Ölkələrimiz arasında əlaqələr yeni səviyyəyə yüksəlib, dezinformasiyaya qarşı mübarizə üçün möhkəm zəmin yaradılıb".

Öz növbəsində, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov çıxış edərək diqqətə çatdırıb ki, hazırda Azərbaycanda və Özbəkistanda media sektorunun inkişafına və əlaqələndirilməsinə cavabdeh təşkilatlar arasında əməkdaşlığın qurulması, hər iki ölkənin dövlət orqanlarının kommunikasiyaya məsul olan struktur bölmələrinin fəaliyyətinin gücləndirilməsi, bu sahədə təcrübə mübadiləsinin təşkili, media təhsili və media savadlılığı, o cümlədən media orqanlarının əməkdaşlığının genişləndirilməsi istiqamətində fəal iş aparılır. MEDİA-nın icraçı direktoru bu il ölkəmizin genişmiqyaslı tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a ev sahibliyi edəcəyini diqqətə çatdırıb və özbək həmkarlarını bununla bağlı görülən tədbirlərə və hazırlıq işlərinə, eləcə də işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq prosesinə davamlı yanaşma və Azərbaycanın yaşıl dünya naminə irəli sürdüyü təşəbbüslər barədə ictimaiyyətə ətraflı informasiya verməyə çağırıb.

Azərbaycan Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Kütləvi informasiya vasitələri ilə iş sektorunun müdiri Kamran Həsənov media sahəsində təcrübə və uğurlu modellərin mübadiləsinin əhəmiyyətini vurğulayıb. O əlavə edib ki, sosial şəbəkələr dəqiqləşdirilməmiş məlumatların yayılması platformasına çevrilir və bu, öz növbəsində, reallıq haqqında yanlış təsəvvürlər yaradır. "Son illərdə yalan məlumatların miqyası on dəfə artıb. Çoxları dezinformasiyanı əsas qlobal təhlükələrdən biri hesab edir", - deyə K.Həsənov vurğulayıb. Sektor müdiri ümidvar olduğunu bildirib ki, hazırkı Media Forumunda bu problemin həlli yollarını tapmaq mümkün olacaq.

Özbəkistan Ali Məclisi Senatının İnformasiya siyasəti və dövlət orqanlarında şəffaflığın təmin edilməsi komitəsində daimi əsaslarla çalışan senator Mahmud Parpiyev rəqəmsal dövrün informasiyanın ötürülməsi üçün yeni imkanlar açdığını vurğulayıb. O əlavə edib: "Sosial media vasitəsilə çoxlu məlumatlar əldə edirik. Amma təəssüf ki, biz onların axınını tənzimləyə bilmirik. Ona görə də indi informasiya müharibəsi gedir, biz qüvvələrimizi birləşdirib dezinformasiyaya qarşı mübarizə aparmalıyıq".

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev bu forumun medianın aktual problemlərinin həllinə kömək edəcəyinə, Azərbaycan ilə Özbəkistan arasında dostluq əlaqələrinin möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Media Forumu çərçivəsində "Dezinformasiyaya qarşı mübarizədə qabaqcıl beynəlxalq təcrübə", "Özbəkistan və Azərbaycanda əhalinin media savadlılığının artırılmasında dövlət və qeyri-dövlət media qurumlarının rolu" və "Özbəkistan ilə Azərbaycan arasında kütləvi informasiya və kommunikasiya sahəsində əməkdaşlığın gücləndirilməsi" mövzularında müzakirələr aparılıb.



Elçin Bayramlı

# İnformasiya təhlükəsizliyimiz təhlükədə

21-cin əsri boş yerə informasiya əsri adlandırmırlar. Bu əsrdə ən qiymətli şey informasiyadır. Əslində həmişə belə olub, sadəcə indi bunun əhəmiyyətini dünya daha yaxşı dərk edir, çünki informasiya bazası və yayım imkanları, müvafiq olaraq informasiyanın təsiri min dəfələrlə artıb. Beləliklə, informasiya müharibəsi getdikcə daha fərqli müstəvilərə keçir. Proseslər göstərir ki, nəinki peşəkar agent, adi bir şəxs belə saxta bir informasiya ilə savadsız kütlənin başına nə oyun desən açа bilər, onun fikrini, münasibətini hara istəsən yönəldə bilər. Küçə dezinformasiyalarına reaksiyalar göstərir ki, nəinki kütləni, özlərini ziyalı, jurnalist, ictimai xadim sayanların çoxunu da asanlıqla avam yerinə qoyub aldatmaq mümkündür- necə ki, çox uzun müddətdir belə də edirlər.

Demək, artıq cəmiyyət və informasiya məkanı olaraq onlayn bazar qeybətləri erasına keçmişik, "deyirlər filandır", "eşitdiyimə görə filan şey olub", "feysbukda yazmışdılar ki ", "vatsapda yayılıb" söhbətləri ilə istənilən məlumatı sürətlə hamıya yaymaq və azı 80-90 faiz insanı buna inandırmaq mümkündür.

Bu dezinformasiya sisteminin çox fərqli istiqamətləri və fərqli üsulları var. Məsələn, neçə illərdir sosial şəbəkələrdə bir saxtakarlıq metodu tətbiq olunur- bir nüfuzlu liderin və ya ictimai şəxsin şəkli qoyulur, altında istənilən fikir yazılır, şərhlərdə yüzlərlə, minlərlə adam başlayır onu söyməyə. Heç kim tələb etmir ki, a bala, zəhmət olmasa bu adamın bu sözü dediyi video materialı bura qoy görək.

İstənilən nüfuzlu şəxsi, təşkilatı, şirkəti, hətta dövləti ləkələmək üçün onun rəqibləri və ya düşmənləri sosial şəbəkələrdə və ya hansısa saytda və ya sosial şəbəkədə bir saxta kompramat material yayımladır, sonradan bunun yalan olduğu ortaya çıxsa belə, artıq cəmiyyətdə lazımi rəy yaradılıb və yalanlama məlumatı onların çox azına çatır. Üstəlik, ilkin mənbəni də əksər hallarda bilmək, tapmaq olmur. Çünki ilk mənbələr saxta sosial şəbəkə hesabları və ya xaricdəki saytlar olur.

Daha bir metod da milli və dövlət mənafeləri əleyhinə yayılan dezinformalarla bağlıdır. Bu işlə əsasən xarici agentura şəbəkələrinin nüfuz agentləri peşəkar şəkildə məşğul olur. Hətta bu yollarla etnik, dini, sosial, siyasi motivli qarşıdurmalar da təşkil etmək mümkündür, necə ki bəzi ölkələrdə bunu dəfələrlə effektli şəkildə təcrübədən keçiriblər. Bu sistemdən daha çox, qərb dövlətlərinin texnoloqları geniş istifadə edir və öz düşmənləri olan ölkələr və qüvvələr haqda mənfi rəy yaratmaq üçün uğurla tətbiq edirlər. Digər ölkələr də bu metodlardan bəhrələnir.

Bunların tələsinə milyonlarla savadsız adam düşür və beləliklə su qiymətinə ictimai rəy formalaşdıra bilirlər. Dezinformaya yaynlar 2 qrupa bölünür: Biri bu işlə bilərəkdən, məqsədli şəkildə məşğul olanlardır, digər qrup isə isə sadəcə savadsız şəxslərdir- hardasa bir saxta materiala rast gəlib və bu da paylaşıb yaymağa. İkinci qrupa daxil olanlar, heç xəbərləri belə olmadan 2-ci qrupa işlədiklərindən (həm də müftə) işlədiklərini və ondan alət kimi istifadə edildiyini belə anlamır.

İnformasiyanın ən qiymətli və ən vacib şey olduğunu informasiya əsrində daha aydın görmək olur. Xüsusən də gəncləri və savadsız şəxsləri aldatmaq daha asandır. Onlar bir neçə saxta informasiya ilə rahatca tələyə düşürlər və özləri də bilmədən müəyyən qüvvələrin informasiya ordusunda müftə xidmət edirlər.

Yalnız savadlı, təcrübəli, ağıllı, məntiqli adamları aldatmaq mümkün deyil. Onlar belə saxta "dezo"ları görəndə- "zəhmət olmasa, mənbə göstərin", "rəsmi sənəd göstərin", "yazdığınızı sübut edin" deyə tələb edir və yalanı ifşa edirlər. Təəssüf ki, beləleri çox azdır. Hamı belə etmədikcə, savadsız kütlənin başına nə oyun desən açmaq olacaq.

Beləlerini sıradan çıxarmaq üçün çox sadə yolu var- onları kütləvi şəkildə blok etmək. Lakin kütlə bunu edəcək deyil. Çünki hansı informasiyanın hansı qüvvələr tərəfindən nə məqsədlə ortaya atıldığını dərk edə bilmir. Dərk edənlər isə nəsə etmirlər. Bu isə ölkəmizin və cəmiyyətimizin informasiya təhlükəsizliyinin çox zəif səviyyədə olduğunun göstəricisidir.

***Zaman göstərdi ki, məhz Heydər Əliyev kimi dahinin, gözəl ailə başçısının, ləyaqətli vətəndaşın, ictimai xadimin, vətənpərvər insanın ailəsində İlham Əliyev kimi övlad böyüyə bilərdi. Bu övlad ailənin bütün üstün cəhətlərindən zaman-zaman aldığı dəyərlərlə yumruğu boyda ürəyinə Azərbaycan böyüklükdə Vətən sevgisini elə sığdıracaqdı ki, bu sevgi bir gün xalqın, millətin xilasına çevriləcək,. 30 il işğal altında olan torpaqlara görə başını dik tuta bilməyən xalqın başı zirvələrə qalxacaqdı. Xalqa qürurunu, namusunu qaytaracaqdı. Azərbaycanın işğal olunan torpaqlarının azad olunması ilə tarixin 270 ildən artıq zaman kəsiyinin axarını dəyişəcəkdi.***

# İkinci Vətən müharibəsi: xalqın qürur və namusunun xilası



## Qarabağ məsələsi isə bir an da unudulmadı

Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın bir gün geri qaytarılması üçün mübarizəsinin davamçısı oldu cənab İlham Əliyev. O, tək ailəsinin deyil, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib.

Qarabağ məsələsi isə bir an da unudulmadı. Liderimizin bütün bayramlarda xalqa müraciətlərində Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...





Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistandan dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa, hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanı çatdığını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi.

## 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağ 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlətmək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox, ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi. Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında minlərlə şəhid, qazi, məcburi köçkünlükdə əzab çəkən insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

## “Bu qanun layihəsini qətiyyətlə pisləyir və qınayırıq” - Qərbi Azərbaycan İcması

Qərbi Azərbaycan İcması bəyanat yayıb. Bəyanatda deyilir: "Qərbi Azərbaycan İcması olaraq, ABŞ Konqresində anti-Azərbaycan mövqeyi ilə tanınan ermənipərəst konqresmen Adam Şiffin 2024-cü il sentyabrın 18-də təqdim etdiyi növbəti anti-Azərbaycan qanun layihəsini qətiyyətlə pisləyir və qınayırıq. Qanun layihəsi həm adı, həm də məzmunu etibarilə təxribat xarakterli və yanlış bir addımdır.

Adam Şiffin ənənəvi anti-Azərbaycan mövqeyi və korrupsiyaya bulaşmış digər Azərbaycanofob, keçmiş senator Bob Menendez kimi erməni lobbisi ilə korrupsioner əlaqələri, onun dürüstlüyünü ciddi şəkildə şübhə altına alır. Qarabağ ermənilərinin Azərbaycan dövlətinin reinteqrasiya və vətəndaşlıq təkliflərini rədd edərək sərbəst şəkildə ölkəni tərk etdiklərini nəzərə alaraq, Şiffin bu qanun layihəsi böhtan üzərində qurulub.

Adam Şiff, 300 min azərbaycanlının Ermənistandan, 700 min azərbaycanlının isə uzun müddət işğal altında saxlanmış Azərbaycan ərazilərindən etnik təmizləmə nəticəsində zorla çıxarılmasını və Azərbaycanın, eləcə də azərbaycanlıların əmlakına, iqtisadiyyatına və mədəni irsinə vurulan yüz milyardlarla ABŞ dolları dəyərində ziyanı görməzdən gəlmiş, hətta dəstəkləmişdir. Bütün bunlar göstərir ki, təqdim olunan qanun layihəsi Azərbaycana qarşı şantaj cəhdidir. Bu addım həm də ABŞ-Azərbaycan münasibətlərinə ciddi zərbə vurmağa hədəflənib.

Qərbi Azərbaycan İcması olaraq, biz ABŞ Konqresindən bu təxribat xarakterli qanun layihəsini rədd etməsini və Adam Şiffin erməni lobbisi ilə korrupsiya əlaqələrinin araşdırılmasını tələb edirik."

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin





üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq. Torpaqlarımızın azad olunmasından sonra onların hələ də ölkədə sifarişli iğtişaş yaratmaq cəhdləri isə xalqımız tərəfindən əsla unudulmayacaq. Çünki onlar müharibə zamanı həmrəy olan, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşən xalqla birlikdə olmadılar. Hələ üstəlik müharibədən sonra yeni iddialarla çıxışlar etdilər. Hanı Xankəndi, hanı Xocalı, deyib, Zəferimizə kölgə salmaq istədilər. Lakin düşünmədilər ki, bu proseslərin hamısı eyni zamanda ola bilməzdi.

2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatlarından sonra ermənilərin könüllü şəkildə Xankəndi, Xocalı və digər yurdlarımızdan çıxmasından sonra isə radikal müxalifət sülhməramlı qüvvələrin nə üçün Qarabağda qaldığını günün əsas mövzusuna çevirdi. Lakin bu dəfə də anlamaq istəmədi ki, axı bunların həlli üçün zaman lazımdır. Özləri də bilə-bilə ki, bu işlər heç də asan deyil, Ermənistanın arxasında havadarları var, lakin yenə də əldə edilmiş qələbəyə kölgə salmaq prinsipindən əl çəkmədilər.

Beləliklə, aprel ayının 18-dən Rusiyanin sülhməramlı qüvvələri Qarabağı tərk etməyə başladıqdan sonra isə mövzuları bitməkdə olan radikal müxalifətə xarici qüvvələrin qrandları hesabına iğtişaş törətmək əmri verildi. Bu dəfə isə "nə edək ki, həm qrandlar əldən çıxmasın, həm də gündəmdə qalaq" prinsipi ilə yeni iddialara başladılar. Toplaşmaq, guya xalqa yol göstərmək fikrinə düşdülər. Görəndə ki, toplaşmaq da onların özü kimi 90-larda qalıb, çəkilib bir kənarda dayanmaqdan başqa çarə görmədilər.

Bunun ardınca Qazaxın 4 kəndinin azad olunası barədə sənədin inzalanması isə xaricdən ermənilərə havadarlıq edənlər kimi, onlara da tutarlı cavab oldu.

## Neoimperialist ünsürlər olmasa...

Söz yox ki, illərlə regionda sabitliyin, iki qonşu dövlət arasında sülhün bərqərar olmasını istəməyən qüvvələr mövcud olub. Zamanla bunlar dövlətlər olaraq dəyişiblər də. Ötən il antiterror əməliyyatından sonra bu qələbəni həzm edə bilmədiklərini açıqca nümayiş etdirənlər Ermənistana hərtərəfli köməklik göstərəcəklərini də açıqca bəyan etdilər. Lakin son hadisə-Azərbaycanla Ermənistan arasında vasitəçi olmadan təmas onu göstərdi ki, vasitəçisiz diplomatiya, eləcə də neoimperialist qüvvələrin müdaxiləsi olmasa, Azərbaycan və Ermənistan sülhün əldə olunması istiqamətində ciddi nəticələrə imza ata bilərlər.

Xalq olaraq buna bənzər hadisələrin 90-cı illərdə də şahidi olmuşduq. Sovet imperiyasının son tör-töküntüsü də regionu öz təsiri altında saxlamaq üçün eyni siyasəti həyata keçirirdi. Ermənistanın qızışdırılması, sərhədlərimizdə iğtişaşların yaradılması, onların silahlandırılıb torpaq işğal etməyə həvəsləndirilməsinin hər birini vaxtilə müşahidə etmişik. Hansı ki, Ermənistan sivil qaydada davranarsa, öz maraqlarından çıxış edərsə və başqalarının əlində alət olmazsa, regionda davamlı sülh tam şəkildə təmin oluna bilərdi və hazırda da bu, belədir.

Bəs ilahi ədalət? Bunu nə üçün bunu görməyə Fransa kimi dövlətlərin gözü yoxdur? Özlərini demokratiyanın beşiyi adlandıran dövlətlər heç bunun eşiyində belə dayanmağa layiq deyillər axı. Bu nə cür demokratiyadır ki, iki xalqın hansının haqlı, hansının haqsız olduğunu görə bilmir. Bir qərinə Azərbaycan torpaqlarını işğal altında saxlayan haqsız Ermənistanın yanında olanlar nə üçün Azərbaycanın dağılan yurdlarını, bir qərinə köçkün həyatı yaşayan insanları, məhv edilən dini-mədəni-tarixi abidələri görə bilmir? Nə üçün illərlə Azərbaycanın haqq səsini eşitmək üçün qulaqları kar oldu?

Bu, necə ədalətdir?..

## Xalqın qürur və namusunun xilası

2020-ci ildən Prezident İlham Əliyevin liderliyi ilə xalqın itirilmiş torpaqlarının qaytarılması Azərbaycanın Zəfər tarixi adlı yeni xronologiyasını yaradıb. O xronologiya ki, tarixin 270 ildən çox axarını dəyişib göstərdi ki, zaman ona hökm oxuyan şəxsiyyətləri xalqların həyatına bəxş edə bilir. Bəxş edir ki, itirdiklərini yenidən onlara qaytara bilsin.

2024-cü ilin 19 apreli 2020-ci ildən qələbədən qələbəyə addımlayan Azərbaycanın şanlı tarixinə yeni bir hadisəni əlavə etməklə, Zəfər xronologiyasını belə sıraladı: 2020-ci il sentyabrın 27-dən 10 noyabradək Azərbaycanın əldə etdiyi tarixi qələbə - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror əməliyyatı, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat. Bu, Zəfər, eyni zamanda qürur tarixidir.

Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin parlaq ruhu bizimlədir. Çünki ağsaqqal olan yerdə Allah var, deyərlər. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, Zəfər tarixi xronologiyasını davam etdirə bilsinlər.

***Mətanət Məmmədova***



# Azərbaycanın tam və qəti qələbəsi

## Prezident İlham Əliyevin Sərəncamına əsasən, 20 sentyabr Azərbaycanda Dövlət Suverenliyi Günü qeyd ediləcək

Müstəqillik tariximizə yeni səhifə yazan Qarabağ Zəfərimizin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz ərazi bütövlüyü, suverenliyi tam bərpa edildi. Əlbəttə ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı həyata keçirilmiş antiterror əməliyyatını zəruri edən bir sıra amillər var idi. Belə ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata baxmayaraq, Ermənistan silahlı birləşmələri Qarabağdan tam çıxarılmamışdı və qarşı tərəf qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi, ərazidən çıxarılması ilə tədbir görmürdü. 2020-ci ildə bütün dünya 44 günlük Vətən





müharibəsində Azərbaycan Ordusunun qazandığı şanlı qələbənin şahidi oldu. Düşmən döyüş meydanında darmadağın edildi. Qarşı tərəf kapitulyasiya aktını imzalamağa məcbur oldu. Ancaq 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatın müddəalarına zidd olaraq Azərbaycanın Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunu və bu birləşmələrin Qarabağ iqtisadi rayonunda mütəmadi olaraq təxribatlar törətməsinin şahidi olurduq.

### ANTİTERROR TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ LABÜD İDİ

Qanunsuz silahlı dəstələrin təminatı məsələləri Ermənistan dövləti tərəfindən həyata keçirilirdi. Məlumdur ki, Qarabağa hərbi sursat və silah daşınması davam edir, Azərbaycan Ordusunun mövqeləri ilə üzbəüz yerlərdə fəal mühəndis-istehkam işləri aparılır, kəşfiyyat-diversiya qruplarının aktivliyi artır, ərazi və yollar yenidən minalanırdı. Ermənistan tərəfinin təxribatları bununla da bitmirdi. 2023-cü il sentyabrın 2-də baş nazir Nikol Paşinyan qondarma "Dağlıq Qarabağın müstəqillik bəyannaməsi"nin "ildönümü" ilə əlaqədar separatçı rejimə təbrik müraciəti ünvanlamışdı. Sentyabrın 9-da isə Azərbaycanın Qarabağ bölgəsində qondarma "prezident seçkiləri" keçirilmişdi. Separatçı qüvvələrin yeni bir hakimiyyət formalaşdırmaq cəhdləri və qeyri-qanuni silahlı dəstələrə maddi-siyasi dəstək verilməsi Ermənistanın daha böyük hərbi təxribatlara hazırlaşdığını göstərirdi. Beləliklə, özündə kapitulyasiya aktını ehtiva edən üçtərəfli Bəyanatın imzalandığı vaxtdan üç il keçməsinə baxmayaraq, davam edən təxribatlar və terror aktları antiterror tədbirlərinin keçirilməsini labüd etmiş oldu. Həmin hadisədən öncə ermənilər Qarabağda, Azərbaycanla Ermənistanın şərti sərhədində müxtəlif təxribatlara əl atmışdılar. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə ermənilər əldə edilmiş razılaşmaları pozmamağa, məğlubiyyətləri ilə barışıb Azərbaycan Bayrağı altında, qanunlarımızın himayəsi ilə yaşamağı qəbul etməyə çağırmışdı. Əks təqdirdə isə "Dəmir yumruq yerindədir və əvvəlkindən də güclüdür" deyərək xəbərdar etmişdi. Bütün bunlara baxmayaraq, qeyd etdiyimiz kimi, bir il öncə entyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumu törətdilər.

### QARABAĞDAKI XUNTA REJİMİ DARMADAĞIN EDİLDİ

Vurğulayaq ki, Müzəffər Ordumuz Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ermənilərə qarşı qisas əməliyyatları keçirmiş və düşmən layiqli cəzasını aldı. 24 saatdan az davam edən bu əməliyyat ordumuzun şanlı Qələbəsi ilə başa çatdı. Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tör-töküntülərinə qarşı antiterror tədbirləri nəticəsində düşmənin atəş nöqtələri məhv edildi, mühüm yüksəklikləri işğaldan azad olundu, çoxlu sayda canlı qüvvəsi, silah və texnikası zərərsizləşdirildi. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Antiterror tədbirlərində ordumuzun ələ keçirdiyi hərbi qənimətlərinin statistikası düşmənin arsenalında çoxlu sayda silah-sursatın olduğunu göstərirdi. 24 saatdan az müddətdə düşmənin tam məğlub edilməsi və minimum itkilərlə sona çatan bu əməliyyatı dünya hərb tarixinin mükəmməl örnəyi kimi dəyərləndirildi. Antiterror tədbirləri Azərbaycanın hərbi gücünün hərbi qüdrət səviyyəsinə qalxdığını, ölkəmizdə hərbi quruculuq işinin mükəmməl şəkildə davam etdirildiyini və xalqımızın qələbə əzminin sarsılmaz olduğunu bir daha nümayiş etdirdi. Ələ keçirilən silahların bəziləri Bakıdakı Hərbi Qənimətlər Parkının yeni eksponatlarına çevrildi. Antiterror tədbirləri nəticəsində Qarabağdakı xunta rejimi darmadağın edildi.

### NÖVBƏTİ PARLAQ QƏLƏBƏ - SUVERENLİYİN TAM BƏRPASI

Azərbaycan Ordusunun 19 sentyabr 2023-cü ildə Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri qəhrəmanlıq tariximizdə əbədi qalacaq. Həmişə qürur duyulası səhifə kimi xatırlanacaq. 2023-cü il sentyabrın 20-də Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd ediləcəkdir. Sənəddə qeyd olunduğu kimi, Ermənistan Respublikası 1990-cı illərin əvvəllərindən başlayaraq Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin tələblərini kobud şəkildə pozaraq Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti həyata keçirmiş və hərbi gücdən istifadə edərək ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizini işğal etmişdir. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər nəticəsində şəhər və kəndlərimiz viran edilmiş, ölkəmizin təbii sərvətləri talan olunmuş, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmişdir. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur.

### "SEPARATÇILARIN TƏSLİM OLMALARI QAÇILMAZ İDİ, LABÜD İDİ, TƏSLİM OLMASAYDILAR MƏHV OLACAQDILAR"

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısını almış növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edilmişdir. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, təslim olmasaydılar məhv olacaqdılar".

Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır. Bu gün üçrəngli Bayrağımız Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində - Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndində dalğalanır. Hər bir xalq üçün öz taleyinə sahib olmaq, müstəqil dövlətini yaradaraq inkişaf etdirmək onun ən böyük nailiyyətidir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilməmişdir. Azərbaycan xalqı bu gün öz müstəqil dövlətinə sahibdir, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

Lokal xarakterli antiterror tədbirləri regionda sülhün bərqərar olmasına misilsiz töhfə verdi. Azərbaycanın inamlı siyasəti bir daha sübut etdi ki, ölkəmizlə ultimatum dilində danışmaq olmaz. Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi, Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni silahlı dəstələri tərk-silah edilərək ərazilərimizdən çıxarıldı, respublikamızın suverenliyi tam təmin edildi, bütün ölkə ərazisində Konstitusiya quruluşu bərpa olundu.



***Zümrüd BAYRAMOVA***

# "Konqresmenlər, fransız deputatlar 30 il ərzində kar, kor oldular"






"ABŞ, Fransa və ya digər Qərb dövlətləri dairələrində yenidən Qarabağ kartını manipulyasiya etmək, Azərbaycan-Ermənistan konfliktini qızışdırmaq, Ermənistana dəstəklərini nümayiş etdirmək cəhdləri və Azərbaycanı müxtəlif insan haqları kontekstində qanun pozulmaları, beynəlxalq qaydalara riayət etməməkdə ittiham etmək, hətta ölkəmizə qarşı müəyyən sanksiyalar tətbiq etmək təklifi ilə çıxış etmək sözügedən Qərb dairələrinin Qafqazda nüfuz savaşının tərkib hissəsidir. Onların əsas məqsədi Qafqaza yerləşmək və bu regionda söz sahibinə çevrilmək, imperialist niyyətlərini həyata keçirməkdir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib. O bildirib ki, xeyli müddətdir Fransanın prezidenti Makronun, onun əlaltılarının, bəzi Avropa deputatlatının sərsəm bəyanatlarını eşidirik: "Onlar Qarabağda yaşayan ermənilərin insan haqlarının pozulması, Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməkdə doğru iş görmədiyi kimi əsassız fikirlər səsləndirilir. Parlamentin VII çağırış ilk iclasında cənab Prezidentin söylədiyi kimi Qərbin heç də erməni xalqına ürəyi yanmır. Ermənistan və erməni siyasətçiləri hər zaman müxtəlif qüvvələrin, güclərin əlində alət olublar. Təəssüf ki, bu gün də Ermənistandan alət kimi istifadə etməyə davam edirlər. Ermənistandakı siyasi qüvvələr, o cümlədən Ermənistan rəhbərliyi məmnuniyyətlə alət rolunu öz üzərlərinə götürüblər.Şübhəsiz ki, bütün bunların nəticəsi olmayacaq. Azərbaycana qarşı heç bir ciddi mənfi təsirlərə səbəbiyyət verməyəcək. Azərbaycan güclü dövlətdir və bizim çox güclü Ali Baş Komandanımız, Liderimiz var. Dövlət başçısının nüfuzu dünyada o qədər yüksəkdir ki, bu gün onu hər hansı ölkənin, o cümlədən Amerika və Fransanın prezidentlətinin nüfuzu ilə müqayisə etmək belə düzgün deyil. Bu mənada Azərbaycanın dostları, bizə dəstək olan ölkələr də çoxdur.

Azərbaycanın yüksək nüfuzunun nəticəsidir ki, dünyanın 200-ə yaxın dövlətinin səsverməsi ilə COP29-un ölkəmizdə keçirilməsi razılaşdırılıb.Eyni zamanda Azərbaycan heç bir beynəlxalq hüquq qaydalarını pozmayıb, heç bir dövlətin ərazisini işğal etməyib. Azərbaycan yalnız ərazilərimizdə 30 il ərzində hökmranlıq edən terror qruplaşmalarının fəaliyyətinə son qoyub, ərazilərini işğaldan azad edib. Qarabağda yaşayan ermənilərin ərazilərimizi tərk etməsi isə onların könüllü şəkildə verdikləri qərardır. Əgər Azərbaycan onları çıxartmalı olsa idi, elə 2020-ci ildə bu prosesi həyata keçirərdi. Biz bunu etmədik, humanistlik göstərdik və orada yaşayan insanlara da dəfələrlə ərazilərimizdə bizim qanunlarımız çərçivəsində yaşamağı təklif etdik. Amma bunlar təklifimizi qəbul etməyərək, ərazilərimizi tərk etdilər.İnsan haqlarından danışan Amerika konqresmenləri, Fransa deputatları 30 il ərzində kar, kor oldular. Azərbaycanın öz yurd-yuvasından didərgin düşmüş 1 milyon vətəndaşının hüquqlarının tapdalanmasına səs çıxarmadılar. İndi isə ermənilərin guya pozulan hüquqlarının müdafiəsinə qalxıblar. Bu mənada bütün danışıqlar boş məsələdir. Onların yeganə niyyəti Ermənistandan alət kimi istifadə edərək Cənubi Qafqazda öz hegemonluqlarını həyata keçirməkdir. Lakin buna nail olmayacaqlar. Ölkə rəhbərinin də söylədiyi kimi qarşımızda duran əsas məqsəd hərbi qüdrətimizi artıraraq özümüzü və bölgəmizi müdafiə etməkdir".







**Səbinə Hüseynli**



## FELYETON

# Haqlı, haqsız...

Bizdə belədir ki, bir nəfər ölən kimi bir-birimizə xəbər verib yığışıb gedirik başsağlığı verməyə. Lap yaxşı. "Sevinc paylaşdıqca çoxalar, kədər paylaşdıqca azalar" deyiblər. Baş sağlığı da ki, verdin, ta dur get işinin-gücünün dalınca kimi deyil bizdə. Saatlarla oturuyuq, ta ev yiyəsini təngə gətirmədən durub getmirik. Mətləbdən uzaqlaşıram, bilirəm, amma onu da deməsəm olmaz ki, hələ aramızda eləlri də var ki, yasa ancaq yemək saatında gedir. Nə isə...

Keçək mətləbə. Sözümün canı odur ki, getdiyimiz yasda ev sahibinə baş sağlığımız yalnız bu sözlərdən ibarət olur: "Ölüm haqdır, nə etmək olar ki". Bu ölən haqlı yerə ölüb, haqsız yerə ölüb, durduğu yerdə ölüb, ya bəzi həkimlərin tibb elmini "mükəmməl" mənimsəməsindən ölüb, bir sərxoş sürücü yazığı yol ilə getdiyi yerdəcə vurub öldürüb, qoz çırpanda ağacdan düşüb ölüb, damın qarını təmizləyəndə oradan yıxılıb ölüb, hamamda qaz boğub öldürüb, sayğacın başına oyun açanda elektrik qurudub öldürüb, qiymətlərin bahalığından infarkt keçirib ölüb, köhnə qida yeyib zəhərlənib ölüb, xəstə olub, əcəli çatıb ölüb, hər nəysə, ölənin hamısına "Nə etməli, ay bacı, ay qardaş, ölüm haqdır" təsəllisini verib işimizi tamam hesab etmiş oluruq.

Bu əcəlsiz ölümlərin sayını azaltmaq üçün insanları ha maarifləndir, ha maarifləndir, xeyri yoxdur. Ha de ki, əcəlini özün gətirmə, ay adam. İmkan ver, alın yazının vaxtı gəlib çatsın. Sənə kim deyir ki, bir yerin ağrıdımı, həkimə gedəsən? Pulun var, bir yaxşı həkim tap, yoxdur, otur yerində türkəçarədən, zaddan, bir şey elə, ümidini də ki, Allahdan kəsmə.

Sənə kim deyir ki, qazla işləyən istilik cihazını apar qoy hamam otağına, o da səni boğub öldürsün. Axı ötən il, keçən həftə, sırağa gün bu dərddən ölənlərə "Əşi, bunun ağlı-zadı heç yoxmuş",- deyən sən idin. Ay qardaş, ay bacı evinizdə yer yoxdur, yoxsa şüurunuz yoxdur?

Sənə kim deyir ki, sayğaca müdaxilə edəsən, ölüb oradaca qalasan? Canın çıxsın oğurluq eləmə, ölmə. Sənə kim deyir ki, çıxıb ağacdan qoz çırpasan, qonşunda bu bəlanın qurbanlarının qəbrini axı elə özün qazmısan. Sənə kim deyir ki, qışın qarında-boranında çıxıb damın qarını təmizləyəsən. Durub da orada, yaz gələndə əriyib gedəcək.

Sənə kim deyir ki, get dükana, bazara, qiymətləri dünən, sırağagünkü kimi görməyib infarkt keçirəsən, ay qardaş, bu, belədir də, hər gün qiymətdir ki, qalxır, təzə xəbərdir niyə bu? Palaza bürün, elnən sürün də. Bunu biz necə qəbul ediriksə, sən də qəbul elə, çox yemə, az ye, ölmə də.

Sənə kim deyir ki, get vaxtı keçmiş qida al, ye. O gözü Allah nə üçün verib sənə? Bir bax, gör nə alırsan da. Onsuz da insaf ərşə qalxıb. Sənə kim deyir ki, düş yolun ortasına, sərxoşu var, dəliqanlısı var, atasının balası var. Ay adam, bir-iki addım o tərəfdə səki var, onu nə üçün düzəldiblər, sənin hərəkətin üçün ediblər də. Bəs bunu nə vaxt anlayacaqsan? Səki ilə get, maşın da səni vurub öldürməsin də.

Elə yolda əcəlini çatdıranlardan söhbət düşmüşkən şəhərimizin yerüstü, yeraltı piyada keçidlərini qoyub yolun ortasına düşənlərdən də söhbət açım bir az. Xüsusilə gənc adamlardır, piyada keçidlərdən niyə qaçaqdılar, bilmirəm. Elə yolun ortasındacadırlar. Maşınlar yanından-yörəsindən sürətlə vıyıldayır, bunlar da maşınların arasından. İndi sabah, Allah eləməsin, birini avtomobil vurub yerə yıxanda yenə yığışıb gedəcəyik evinə, deyəcəyik ki, ölüm haqdır, nə etmək olar. Gəlin heç olmasa bu dəfə başqa söz deyək. Deyək ki:

-Sənə kim deyir ki, piyada keçidlərini qoyub, düşürsən yolun ortasına. Dəli kimi yolda maşınların arası ilə o yana, bu yana qaçırsan? O keçidlərləri tikənlər səndən ağılsızdı ki... Qaldı ki, söz dinləməyənlərə, ölüm haqdır, Allah ölənlərin hamısına rəhmət eləsin!

**Mətanət Məmmədova**

# Dünyada uşaq dilənçiliyi

***Uşaq dilənməsi məsələsi Türkiyədə və dünyada müxtəlif səbəblərdən problem olaraq qalmaqda davam edir. Problemin həlli üçün milli və beynəlxalq mübarizə və maarifləndirmə tələb olunur.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Dilənçiliklə bağlı ictimai vicdanı ən çox incidən şey, şübhəsiz ki, məcburi dilənçilikdir. Uşaqlar bu cinayətin ən həssas hədəfləri arasındadır.





## Dilənən uşaqlara niyə pul verməməliyik?

Bu yaxşı niyyətli hərəkət uşaqlara zərər verir. Dilənçi uşaqlara verilən pul uşaqlara yox, onları dilənçiliyə sövq edərək istismar edən insanlara gedir. Bundan əlavə, verilən pul uşağın rifahına fayda vermir və uşağı böyük risklərə sövq edir.

## Dilənçi uşaqlara pul vermənin uşaq üçün müxtəlif zərərli nəticələri var:



Birincisi, uşaqların təhsildən, məktəb mühitindən uzaqlaşmasıdır. Uşaqlara baxmaqla məsul olan ailələr övladlarının dilənçiliklə pul qazandığını gördükdə bunu gəlir mənbəyi kimi görür və uşaqlardan pul qazanmağa davam etmək üçün onları təhsildən ayırır, məktəbə göndərmirlər.

Digər bir nəticə isə ondan ibarətdir ki, dilənməyə məcbur edilən uşaqların yaxşı qidalanmaması, özünə qulluq və gigiyena qaydalarına riayət etməsinə imkan verilməməsi, hətta bəzi hallarda baxımlı olsalar, pul qazana bilməyəcəklərini düşünərək onları qəsdən şikəst edirlər.

Bəzi hallarda valideyn uşağı küçədən uzaqlaşdırmaq istəsə də, uşaq dilənərkən ona pul verildiyini aşkar edir və ondan narkotik və stimullaşdırıcı maddələr satmaq üçün istifadə edir.

Sosial risklər və nəticələr yuxarıda göstərilənlərlə məhdudlaşmır. Bundan əlavə, Türkiyə Cəza Məcəlləsinə görə, uşaqları dilənçilikdə alət kimi istifadə etmək cinayət sayılır. Bu Qanun çərçivəsində uşaqları dilənçiliklə məşğul olmağa məcbur edənlərin azadlıqdan məhrum etmə ilə cəzalandırılması nəzərdə tutulur.

Uşaq dilənçiliyi bu gün dünyada tez-tez rast gəlinən zorakılığın ümumi formalarından biridir. Əslində, cəmiyyətdə geniş yayılmış inancların müqəddəsləşdirdiyi dəyərlərdən biri olan əməkdaşlıq anlayışı maddi yardıma ehtiyacı olan insanlar üçün həyati əhəmiyyət kəsb edir və bəzi insanlar üçün asanlıqla əldə edilə bilən iqtisadi qayıdışa çevrilə bilir. Dilənçilər də ehtiyaclarını qarşılamaq üçün vicdan və ya duyğu davranışları ilə



fərdlərə yaxınlaşaraq bu iqtisadi dönüşdən faydalana bilərlər. Bu mənada uşaqlar.

Uşaqların məsumluğu və müdafiəsizliyi onlardan istifadə edənlər üçün qazancı artırsa da, pulu verəcək şəxslərdə də həssaslıq yarada bilər. Hətta uşaqların bu həssaslığa daha tez reaksiya verməsi üçün onlardan istifadə edənlər tərəfindən xoşagəlməz vəziyyətlərə (ayaqqabısız gəzdirmək, ağzına maska taxmaq, soyuq hava şəraitinə uyğun olmayan paltar geyinmək və s.) məruz qala bilər. Bununla belə, uşaqlar dilənçilikdə istifadə olunan manealər və ya dini söhbətlər və görünüşlər kimi digər vasitələrlə də birlikdə istifadə edilə bilər.

## Dünyada uşaq dilənçiliyi

Məsələn, Tanzaniyanın Dodoma qəsəbəsində aparılan bir araşdırmaya görə, əlillər dilənərkən uşaqları bələdçi kimi istifadə edirlər.

Səudiyyə Ərəbistanında isə 18 fərqli ölkədən olan uşaqlar küçədə satış və dilənçilik fəaliyyətlərinə sövq edilir.

Dilənməyə məcbur edilən uşaqların inkişafının təhlükə altında olduğunu göstərən çoxlu araşdırmalar var. Məsələn, Çinin Mülki İşlər Nazirliyinin statistik məlumatlarına əsaslanan xəbər hesabatında milyonlarla uşağın dilənməyə məcbur edildiyi və əksəriyyətinin qaçırıldığı bildirilir.

Səudiyyə Ərəbistanında müxtəlif ölkələrdən ümumilikdə 24.000 uşaq küçədə satış və dilənçilik fəaliyyətlərində istifadə olunur. Bildirilir ki, Hindistanda mütəşəkkil cinayətkar qruplar əvvəllər aludələşdirdikləri uşaqları narkotik əldə etmək üçün dilənməyə məcbur edir, sonra isə onlara narkotik verirlər.

İraqda edilən bir araşdırmada dilənçiliklə məşğul olan uşaqların 21%-nin siqaret çəkən, 14%-nin isə maddə asılısı olduğu, onların 16%-nin cinayətə sürüklənmə tarixçəsi olduğu, 78%-nin isə heç məktəbə getmədiyi aşkar edilmişdir. Dilənməyə məcbur edilən



uşaqlar gün ərzində ailə daxilində böyüklərin himayəsindən və ya müsbət rol modellərindən də məhrum ola bilərlər.

Hindistanda gündə 9 saatdan çox dilənçiliyin sonunda siz 1,2-2,4 ABŞ Dolları ($) arasında qazanırsınız ki, bu da Yeni Dehlidə ixtisassız bir işçinin qazancına bərabərdir. Albaniyada gündə 6 saatdan çox dilənçiliklə məşğul olan uşaqlar 2,50-6,45 dollar qazanırlar ki, bu da bu ölkədəki küçə təmizləyicilərinin qazancıdır. Yunanıstanda uşaqların dilənçiliklə gündə 43-100 dollar arasında qazandığı bildirilir. Bu qazanclar uşaqların niyə dilənçilikdə istifadə edildiyini təəccüblü şəkildə ortaya qoyur.

İstanbuldakı məlumatlara baxsaq, 2000-2006-cı illər arasında dilənçilikdə ittiham olunan uşaqların sayı 4-dən 45-ə yüksəlmişdir. Lakin İstanbul kimi əhalisi çox olan bir şəhər üçün bu göstəricilər az görünsə də, qeyd olunan rəqəmlər cinayət işinə çevrilmiş uşaq dilənçilik əməlləridir. İstanbul üçün başqa bir məlumat isə Uşaq Şöbəsinin işinə əsaslanır. Müvafiq olaraq, 2007-2010-cu illər arasında cəmi 3793 uşaq küçələrdə işləməyə və ya dilənməyə aparılıb. Yenə bu, hər gün görən, yanından keçən, pul verən və ya nəsə alan uşaqların dəqiq sayını açıqlamır. 2007-ci ildə Adanada dilənməyə məcbur edilən uşaqların sayı 23 ikən, 2008-ci ildə 22-yə yüksəlmişdir.

**Fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub:** "Uşaqları dilənçiliyə sövq edənlərin məqsədi yalnız bir şeydir, o da pul qazanmaq. Əgər insanda əxlaq, mənəviyyat yoxdursa onun yalnız həyatda bir məqsədi olur. Mənfəət, vəssalam. İnsan mənfəət kəsb etmək üçün bütün çirkin yollara əl atır, hətta uşaqlara belə rəhm etmir.

Baxın, dünyanı məhv edənlər, körpə uşaqları bombaların altında öldürənlər, qıranların məqsədi yalnız mənfəətdir. Bu da eynidir. Körpə uşaqları pul qazanmaq, mənfəət əldə etmək üçün dilənçiliyə sövq edirlər. Bunun qarşısını yalnız dövlət ala bilər. Bu barədə dövlət ciddi addım atmalıdır".

**Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov:** "Bu uşaqları dilləndirmək cinayətdir. Cinayət Məcəlləsinə görə uşaqların dilləndirilməsi insan alveri hesab edilir. Uşaqların dilləndirilməsini qarşısını



almaq üçün öncə böyüklərə təlim keçmək lazımdır.

Valideynlərin və yaxınlarının əlində azyaşlı uşaqlar qazanc vasitəsi kimi istifadə olunur. Onlar hətta öz ata-anaları tərəfindən bu işə cəlb edilirlər. Əlbəttə buna qarşı hüquq-mühafizə orqanları tərəfindən ciddi tədbirlər aparılmalıdır. Uşağın hər hansı bir şəkildə əməyinin, özünün istismarı qəbuledilməzdir. Bu konvesiyalara da, bizim milli qanunvericiliyimiz və mənəviyyat qanunlarımıza da ziddir.

Öncə valideyn məsuliyyəti artırılmalıdır. Qeyd edim ki, dilləndirilən uşaqlar arasında erkən qeyri-rəsmi münasibətdən doğulanlar çoxdur. Bu səbəbdən erkən münasibətlərlə də mübarizə aparmaq lazımdır. Amma dünya praktikasında da hansısa cinayətin yüz faiz qarşısını almaq mümkün deyil".

***Ayşən Vəli***

*Əcnəbi ekspertlər*

# “Erməni kilsəsi yeni müharibəyə çağırır”

"Katolikos ümumilikdə Azərbaycanı yeni müharibə ilə hədələyir, xüsusən də hansısa qələbəyə, bunların geri qaytarılmasına çağırışlar çoxdur"

Ermənistanın Müstəqillik Günü münasibətilə bütün ermənilərin katolikosu II Karekin yenidən Azərbaycana qarşı ərazi iddiaları səsləndirib. ”Artsax işğal olunub, Artsaxın uşaqları məcburi köçkün vəziyyətinə düşüb və Ermənistanın sərhədlərində sülh qeyri-sabitdir. Biz yenidən təhlükəsizlik problemləri və yeni təhdidlərlə üzləşmişik. Dövlətimizi gücləndirmək, xarici və daxili çağırışlara tab gətirmək üçün şanlı qələbələrə və uğurlara yol açmaq üçün həmrəy olmaq son dərəcə vacibdir”,- II Qareginin müraciətində deyilir.

Gördüyümüz kimi, Eçmiədzin hələ də Azərbaycanın bir hissəsini Ermənistan dövlətinin mülkiyyəti hesab edir. Xarici politoloqlar bu haqda nə düşünür? Erməni ruhanilərinin iştahını və ”yeni qələbələr” çağırışlarını necə qiymətləndirirlər?

**”Azərbaycanın ərazisini 30 il işğalda saxlayanın Ermənistan olduğunu unudublar”**

Belaruslu politoloq, siyasi elmlər namizədi Svetlana Korniçenkonun fikrincə, erməni katolikosunun müraciəti göstərir ki, o və erməni kilsəsi hansısa başqa reallıqda, in-




sı bir xristian keşişinin çağırdığı kimi sülhə çağırmır, əksinə, daha çox müharibəyə çağırır. Bu cür bəyanatları həm də erməni dini liderinin həm xaricdən olan, həm də daxili rəqiblərinə göndərdiyi bir növ zəhərli mesaj kimi də qiymətləndirmək olar. Xüsusən də Ermənistanın baş naziri Paşinyana. Çünki bu bəyanat bir çox məqamlarda Paşinyanın dedikləri ilə ziddiyyət təşkil edir və ola bilsin ki, Ermənistan rəhbərliyi II Qareginin dediklərinə görə izahat verməli olacaq.

İlk baxışda ruhani, dini lider deyilənlərə görə sözün tam mənasında birbaşa məsuliyyət daşımır, çünki o, rəsmi siyasi xadim deyil, ancaq bu, ilk baxışdan belədir. Və biz bunu mükəmməl başa düşürük. Əlində silah olan erməni keşişinin obrazı müxtəlif dövlətlərin və xalqların nümayəndələrinin, xüsusən də Qarabağ probleminə bələd olanların bir neçə dəfə gözlərini qamaşdırıb, ziddiyyətli hisslər oyadıb.







diki vaxtdan ən azı bir neçə il ayrılmış aşkar keçmişdə mövcuddur. Caliber.Az-la söhbətində o, belə bir çıxışın ölkədə siyasi və sosial gərginliyə səbəb ola biləcəyini qeyd edib.

”II Qareginin mesajı göstərir ki, o, heç bir şəkildə bəyanatlarını Ermənistanın siyasi reallığı ilə, Qarabağ bölgəsini Azərbaycanın bir hissəsi kimi tanıyan və bu mövzuya qayıtmamağa çağıran baş nazir Paşinyanın bəyanatları ilə əlaqələndirmir. Yəni erməni ruhaniləri-



nin fikrincə Qarabağ erməni torpağıdır. Üstəlik, katolikosun ”işğal” sözünü işlətdiyini görürük ki, bu da daha çox çaşqınlıq yaradır. Sual olunur ki, Azərbaycanın bu ərazisini təxminən otuz il əvvəl işğal edib öz nəzarətində saxlayan Ermənistan deyildimi?

Bəyanatın mətninin qalan hissəsinə əsasən belə qənaətə gəlmək olar ki, Ermənistan dövlətində həqiqətən də rəsmi hakimiyyət, ictimai və dini təşkilatlar arasında tam fikir ayrılığı var. Hər kəs istədiyini deyir. Müraciətin mətninə diqqətlə baxsanız, görünə bilər ki, katolikos ümumilikdə Azərbaycanı yeni müharibə ilə hədələyir, xüsusən də hansısa qələbəyə, bunların geri qaytarılmasına çağırışlar çoxdur; Artsaxın uşaqları” - deyəsən bu müraciətdən belə bir son nəticə çıxır.

Məlumdur ki, ən azı formal səviyyədə Ermənistan hakimiyyəti ilə erməni kilsəsi arasında dialoqda ciddi problemlər var, lakin görünür, ölkə hökuməti öz mövqeyini erməni ruhanilərinin mövqeyi ilə əlaqələndirməyə başlamalıdır. Çünki belə dissonans erməni cəmiyyətinin vətəndaş təbəqələşməsi, müxtəlif baxış və qüvvələrin kəskin toqquşması üçün ilkin şərt ola bilərdi. Qonşu Azərbaycanla yarana biləcək siyasi fəsadları demirəm”,- Korniçenko vurğulayıb.



**”Katalikos xristian dəyərlərini təbliğ etmir, sülhə çağırmaq əvəzinə, müharibəyə çağırır”**

Qazaxstanlı politoloq Azat Axmetovun fikrincə, ilk diqqəti çəkən erməni katolikosunun mövqeyinin nə qədər barışmaz və hətta aqressiv olmasıdır. ”Şəxsən mənim üçün narahatedici faktor odur ki, ölkənin ruhani, dini lideri, əslində, hər han-

Bu mərhələdə belə bir fikir yaranır ki, erməni kilsəsinin baxışları heç də dəyişməyib- o, əsl xristian dəyərlərini təbliğ etmir, əksinə, ”müharibə partiyası”nın maraqlarını ifadə edir, onun məqsədlərinə erməni cəmiyyətinin müəyyən bir hissəsi, siyasi partiyalar və hətta Ermənistan rəhbərliyi hələ də sadiqdir”,- A.Axmetov bildirib.

***Tərcümə - Elçin Bayramlı***



# Azərbaycan mədəniyyətlərin, sivilizasiyaların qovuşduğu mərkəzdir

Ulu Öndərin banisi olduğu azərbaycançılıq ideyası xalqımızın multikultural və tolerant dəyərlərinin ideoloji sistemini təşkil etməklə yanaşı, ölkəmizdə yaşayan bütün etnosların vahid maraqlar və vahid dövlət prinsipi ilə mənəvi-siyasi birliyini əlaqələndirir. Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaş bərabərhüquqlu və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında davamlı inkişaf edən ölkəmiz artıq dünyada multikulturalizm, sivilizasiyalar arasında dialoq məkanı kimi qəbul edilir. Ölkəmizdəki tolerantlıq mühiti Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Bu gün Azərbaycan dünyada multikulturalizmin ən mükəmməl modelini yaradıb. Artıq bu model ən inkişaf etmiş ölkələrin ali məktəblərində tədris olunur, elmi mərkəzlərdə öyrənilir, təhlil edilir. Multikulturalizm Azərbaycanda həyat tərzi və dövlət siyasətidir. Müasir Azərbaycan dünyanın nadir ölkələrindəndir ki, burada bütün millətlər, xalqlar, müxtəlif dinlərin nümayəndələri bir ailə kimi yaşayır və azad fəaliyyət göstərirlər. Təsadüfi deyil ki, dünya dövlətləri Azərbaycanın bu sahədə öz təcrübəsini yaymasında maraqlıdır. Azərbaycan yüksək dəyərlərə sahib olan multikultural cəmiyyətdir. Azərbaycan əhalisinin 96 faizinin müsəlman olmasına baxmayaraq, xristianlar, yəhudilər, ümumiyyətlə, bütün dini konfessiyaların nümayəndələri sülh və əmin-amanlıq şəraitində birgə yaşayırlar. Bu gün Azərbaycanda xristianlığın ayrı-ayrı cərəyanlarının icmaları sərbəst şəkildə fəaliyyət göstərir və 7 sinaqoq, 4 gürcü kilsəsi də fəaliyyətdədir. Ölkəmizin paytaxtında Cənubi Qafqazın ən möhtəşəm məbədi Heydər Məscidi inşa edilib. Qeyd edək ki, xalqımızın tarixi keçmişindən qalan tolerantlıq və multikulturalizm prinsipləri ölkəmizin qanunvericiliyində də öz əksini tapıb.





## DÜNYANIN 26 APARICI UNİVERSİTETİNDƏ MULTİKULTURALİZMƏ GİRİŞ TƏDRİS OLUNUR

Prezident İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq" təşəbbüsünün real həllini tapması məqsədilə "Azərbaycan multikulturalizmi" fənninin yerli və xarici ölkə universitetlərində tədrisi layihəsi uğurla icra olunur. Bu gün layihə geniş coğrafiyanı əhatə edir. Hazırda bu layihə çərçivəsində ölkəmizin bütün universitetlərində və bütün ixtisaslar üzrə, eyni zamanda, dünyanın 26 aparıcı universitetində "Multikulturalizmə giriş" və "Azərbaycan multikulturalizmi" fənləri tədris olunur. Tolerant dəyərlərin qorunduğu ölkəmizdə qış və yay məktəbi təşkil edilib. Yay və qış məktəblərinin iştirakçılarına Azərbaycandakı multikultural vəziyyət, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında geniş məlumat verilir.

## "AZƏRBAYCANIN 9 ŞƏHƏRİ VƏ YÜZLƏRLƏ KƏNDİ ERMƏNİSTAN TƏRƏFİNDƏN YER ÜZÜNDƏN SİLİNİB"

Qeyd edək ki, Azərbaycan multikulturalizm ideyasını irəli sürdüyü vaxtda, Ermənistan tərəfindən işğal dövründə saysız-hesabsız abidələrimiz dağıdılmışdır. Qarğabazar kəndində Cəlil türbəsi, Aşağı Veysəlli kəndində Mirəli türbəsi, Qocəhmədli kəndində məscid binası, Horadiz kəndində məscid binası, Horadiz kəndində İmamzadə türbəsi, Fuzuli şəhərində məscid binası, Aşağı Aybasandı kəndində İbrahim türbəsi və s. onlarla belə tarixi əhəmiyyətli abidələr işğal dövründə erməni vandallığına məruz qalmışdı. Ermənistanın işğalı nəticəsində saysız mədəni abidələr dağıdılmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır: "Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir". Bütün bunlar Ermənistan tərəfindən Azərbaycana qarşı olan ərazi iddiasının nəticəsində baş vermişdir. Azərbaycanın ən nadir tarixi abidələri onun tarixini, adət və ənələrini, onun mədəni kökünü özündə ehtiva edir. Amma Bakıda erməni kilsəsi qorunub-saxlanılır və bu gün də fəaliyyət göstərir. Təkcə elə bu fakt xalqımızın tolerantlığının bariz göstəricisidir.



## "BİZ BU MÜSBƏT TENDENSİYALARI, MƏDƏNİ DİALOQU VƏ MƏDƏNİ MÜXTƏLİFLİYİ GÜCLƏNDİRMƏLİYİK"

Prezident İlham Əliyevin tolerantlığın inkişafına, möhkəmləndirilməsinə, təbliğinə diqqətinin məntiqi nəticəsidir ki, ölkəmizdə etnomədəni münasibətlər ən yüksək səviyyəsindədir. Azərbaycanda etnik mədəniyyətlərin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması, müxtəlif konfessiyalara hörmət və ehtiramın güclənməsi istiqamətində xeyli iş görülmüşdür. Dövlət başçısının məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə ictimai-siyasi sabitlik, milli-mənəvi birlik, tolerant mühit formalaşıb. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərilir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. "Azərbaycanda müxtəlif etnik qrupların və dinlərin təmsilçiləri bir ailə kimi yaşayır. Onlar Azərbaycanın dəyərli vətəndaşları, bizim dövlətimizin, dövlətçiliyimizin əsl vətənpərvər insanlarıdır", - deyə Cənab Prezident bildirib: "Biz bu müsbət tendensiyaları, mədəni dialoqu və mədəni müxtəlifliyi gücləndirməliyik. Bütün bunlar əsrlərdən gələn nemətdir".

Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Azərbaycan dünya miqyasında dinlərarası, millətlərarası münasibətlərin qurulmasında artıq nümunəvi ölkə kimi tanınır. "Azərbaycan cəmiyyətində sülhün, sabitliyin, həmrəyliyin amillərindən biri məhz mədəni müxtəliflik və qarşılıqlı hörmətlə bağlıdır", - deyə Prezident diqqətə çəkib ki, Azərbaycan daxilində mədəniyyətlərarası dialoq hər zaman müsbət olub. Prezident qeyd edib ki, multikulturalizm Azərbaycan vətəndaşları üçün hər hansı abstrakt məfhum deyil, həyat tərzidir. Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Ölkəmizdə abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi, İmamzadə kompleksi, möhtəşəm Heydər Məscidi Azərbaycanda olan mühitin təzahürüdür. Bütün bunlarla yanaşı, Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib.

Ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir.

***Zümrüd BAYRAMOVA***

# Biokütlədən bioenerjini necə almalı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb*








Heyvan peyinindən bioqazın necə əldə edilməsi məsələsi son illər insanları ən çox maraqlandıran məsələlərədən biridir. Heyvan peyinindən bioqaz istehsalı xüsusi təmizlənmə üsulları və texnikası ilə daha çox Avropa Birliyi ölkələrində inkişaf etdirilərək yerli enerji istehsalı resurslarına mühüm töhfə verir. Hazırda Almaniya, Fransa, İsveçrə, İtaliya, Avstriya bu istiqamətdə çox iş görüb. Təkcə Almaniyada 3500-dən çox bioqaz qurğusu heyvandarlıq və kənd təsərrüfatı tullantılarından bioqaz istehsal edir. Məsələn, Danimarka heyvan peyinini digər üzvi tullantılarla qarışdıraraq bioqaz əldə edən ən populyar ölkələrdən biridir.

Biokütlələrdən alınan bioqazmetan qazı istehsalı imkanları bizim ölkəmizdə də var. İstənilən maldarlıq, heyvandarlıq ferması yaxınlığında bu enerjidən istifadə üçün imkan yaratmaq və qaz əldə etmək olar. Əgər heyvan peyinindən şüurlu şəkildə istifadə olunarsa, bunun təbiətə bir çox faydaları ola bilər. Digər alternativ enerji növlərindən fərqli olaraq bioenerji təbiətə, cəmiyyətə verdiyi faydalar baxımından daha üstündür. Bu enerji növü daha çox təbii qazın alternativdir, çünki bioqaz qurğularının istehsal etdiyi enerji metan qazından ibarətdir və bu da təbii qaz kimi yanar qazdı. Amma o təbii qaza nisbətən daha ağır yanacaqdır, yəni onun verdiyi istilik enerjisi daha çoxdur, istilik əmsalı daha üstündür.

Digər ölkələrdən fərqli olaraq Danimarkada mərkəzləşdirilmiş bioqaz qurğuları tikilib. Təsərrüfatlardan toplanan tullantıları mərkəzi bioqaz qurğularında qaz hasil etmək üçün istifadə etdikdən sonra sistem bioqazı mərkəzi təbii qaz şəbəkəsinə verir və yerdə qalan kütlədən yaranan gübrəni fermerlərə paylayır. 1500-2500 baş malqara peyini ilə bioqaz emal edən qurğu gündə 10.000-15.000 m? arasında bioqaz istehsal edə bilir. Bioqaz enerjisinin xüsusi bir xətlərlə çəkilişinə ehtiyac yoxdur. Lokal qurğulardan istifadə olunur və elə mövcud olduğu yerdə də istifadəsi mümkündür. Təbii qazın isə yüksək dağlıq regionlara təchizatında bildiyimiz çətinliklər var. Relyef, uzaqlıq məsələləri, ümumiyyətlə daha çox vəsait tələb olunur. Amma bu vəsaitin tələb olunmadığı bir enerji növü axtarmalı olsaq, bioqaz enerjisinin üzərində dayanmalıyıq. Bioqaz enerjisinin istənilən heyvandarlıq təsərrüfatı olan yerlərdə tətbiqi mümkündür. Yəni heyvandarlıq təsərrüfatlarının tullantısını, peyinini bioqaz qurğularında xüsusi bir prosesə məruz qoymaqla əldə edilir.

Bu prosesdə peyinin tərkibindəki biorqanizmlər, mikroorqanizmlər aktivləşdirilir. Onlar da bir neçə qrupa bölünürlər - psixofillər, termofillər, mezofillər. Mezofillər ikinci yerdədir, temperatur tələbatına görə. Termofillər isə 45 dərəcədən yuxarıda aktivləşirlər. Psixofillər və mezofillər daha aşağı temperaturlarda aktivləşə bilirlər və bunların hər hansı bir reaktorda aktivləşdirilməsi yolu ilə peyindən əmələ gətirdiyi qaz, təbii qazın alternativ olaraq bir yanacaq kimi istifadə oluna bilər. Bu üsul meşələrin qorunmasında ən faydalı resursdur. Digər tərəfdən bioqaz qurğularının əsas faydası heyvandarlıq təsərrüfatlarının tullantısının ətraf mühitə verdiyi zərərin qarşısını ala bilməsidir. Bir çox ekoloqlar hətta bu zərərin qarşısını almaq üçün heyvandarlıq təsərrüfatlarının azaldılmasına, bir çoxları isə ümumiyyətlə ixtisarına dair çağırışlar edirlər.



Heyvan tullantılarından bioqaz əldə etmək yaşıl dünya üçün vacib adımdır. Bioqazla əldə edilən elektrik və istilik istehsalı iqtisadi səmərəliliyi təmin edir. Emal tullantıları gübrə kimi istifadə edilə bilər, üstəlik bioqaz hasilatından sonra əldə edilən gübrələrdən istifadə etmək daha asandır. Qlobal istiləşməyə səbəb olan ən mühüm amil olan istixana qazı emissiyaları bu üsulu tətbiq etməklə azalır.

Metan ən təhlükəli istixana qazlarından biridir. Heyvan tullantılarından atmosferə atılan metan qazı eyni həcmdə $CO_2$-dən 20 dəfə çox istixana qazı effektinə malikdir. Peyin atmosferə açıq şəkildə atıldığı zaman orada gedən xüsusi proseslər nəticəsində ayrılan metan qazı atmosferin yuxarı qatlarına qalxır və istixana effekti deyilən problemin yaranması ilə nəticələnir. Lakin bioqaz qurğularında əldə edilən metan yandırılaraq $CO_2$-yə çevrilir, yəni zərəri 20 dəfə azaldılır. Çox ucuz və ekoloji cəhətdən təmiz bir tullantı olan biokütlə tək peyin yox, digər oxşar məişət və kənd təsərrüfatı tullantıları da ola bilər. Bu yolla süni gübrələrdən asılılığı azaltmaq da olar.

Bioqaz qurğularının daha bir faydası isə həmin istifadə edilən peyindəki mikroorqanizmlər o peyini həzm edərək yeməsi və yenidən ifraz etməsidir. Həmin peyin artıq peyin olmaqdan çıxaraq bioqumusa çevrilir. Bioqumus isə ən faydalı və ən qiymətli gübrədir. Onun Avropadakı 20 il bundan əvvəlki qiyməti 4000 evro idi. İndiki qiyməti düzü necədir, onu bilmirəm, amma yəqin ki, bu son bahalaşmalar, inflyasiya bioqumusun da qiymətində artıma səbəb olub. Yəni bu çox faydalı bir gübrə növüdür və həmin biokütlə enerjisi ilə əldə eləmək olur. Digər tərəfdən isə təbii qaz xətlərinin çəkilişinin tələb etdiyi artıq xərclərdən yaxa qurtarmış oluruq.

Bioqaz qurğusu qaz mühərriki və generatoru olan kogenerasiya qurğusu vasitəsilə elektrik enerjisi də istehsal edir. Belə olanda benzinlə işləyən mühərriklər bioqazla işləyir və generatorları idarə edir. Bu elektrik enerjisinin kiçik bir hissəsi obyektin öz ehtiyaclarına yönəldilir. Məişət cihazlarına, məsələn mətbəxdəki mikser və ya soba, su nasosu, televizor kimi avadanlıqlarda istifadə üçün istifadə olunur. Qalan elektrik enerjisi satıla, ümumi şəbəkəyə verilə bilər. Hətta satılmasa belə evin, müəssisənin enerji təminatı pulsuz başa gəlir.

Bioqaz istehsalında heyvan peyini ilə yanaşı kənd təsərrüfatı tullantıları, toyuq, qaz, ördək peyini də istifadə edilə bilər. Tövlədə gündəlik yığılan heyvan peyini nasosla balans çəninə ötürülür, çənə yerləşdirilən nasosla isə həmin peyin müəyyən konsentrasiyaya uyğun olaraq bioqaz zirzəmisi adlanan ayırma çəninə vurulur. Bioqazın neçə günə əmələ gəlməsinə gəlincə, bioqaz zirzəmisində təxminən 24 gün saxlanılan və emal edilən heyvan tullantıları tərkibində 65% metan olan bioqaz əmələ gətirir, o zaman təmizlənmiş tullantılar zirzəmidən sorularaq bufer çəninə göndərilir, yəni yaranmış maddə axın boyunca yuxarı göndərilir və ayırıcı qurğuya vurulur, burada isə qaz kütlədən ayrılır. Ayırıcıdan ayrıldıqdan sonra yerdə qalan kütlə gübrə kimi maye formada əkin sahələrinə göndərilir. 1 ton mal-qara peyinindən 33 m? bioqaz, 1 ton quş peyinindən 78 m?, 1 ton qoyun peyinindən 58 m? bioqaz hasil edilə bilər.

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
25 sentyabr
2024-cü il

# Qanunsuz kommunal haqqı tələb edildikdə nə etmək lazımdır?

"Vətəndaşlardan yalnız xüsusi mülkiyyətdə olan daşınmaz əmlaklara görə vergi tələb edilə bilər". Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü Rəşad Əliyev deyib. O bildirib ki, Vergi Məcəlləsinin 197-ci maddəsinə əsasən fiziki şəxslərin xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən tikililərin və ya onların hissələri vergitutma obyektləridir: "Məcəllənin 198.1.1-ci maddəsinə görə, fiziki şəxslər onların xüsusi mülkiyyətində olan binaların sahəsinin (yaşayış sahələrinə münasibətdə - onların 30 kvadratmetrdən artıq olan hissəsinin) hər kvadratmetrinə görə müəyyən edilmiş dərəcələr tətbiq olunmaqla əmlak vergisi ödəyirlər.

Məcəllədə də qeyd edildiyi kimi, vergitutma obyekti yalnız xüsusi mülkiyyətdə olan əmlaklara aiddir. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 12.1-ci bəndində də "xüsusi mülkiyyət" dedikdə daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının əmələ gəlməsi və başqasına keçməsi müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırlanan sənədlər əsasında qeydiyyat orqanı tərəfindən verilən dövlət reyestrindən çıxarışla rəsmiləşdirilir. Ona görə də Dövlət Reyestr Xidmətindən çıxarış olmadıqda həmin mülk xüsusi mülkiyyətdə olan əmlak sayılmır və onun üçün əmlak vergisi hesablanmır. Çıxarışı olmayan evlərdən vergi tələb edildikdə, vətəndaşlar bələdiyyəyə müraciət edərək Vergi Məcəlləsinin 197.1.1 maddəsinə istinad edə bilərlər.



MTK-larda kommunal ödəniş tələbinə gəlincə, yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqq ödəmək vəzifəsi Mənzil Məcəlləsinin 135-ci maddəsi ilə tənzimlənir. Bu maddəyə əsasən, fiziki və hüquqi şəxslər, həmçinin belə xidmətlərdən istifadə edən dövlət orqanları, bələdiyyələr və digər təşkilatlar yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqqı vaxtında və tam məbləğdə ödəməyə borcludurlar. Bu normaya əsasən, yaşayış sahəsinə və kommunal xidmətlərə görə haqqın ödənilməsi vəzifəsi mənzil-tikinti kooperativi üzvləri üçün - mənzil-tikinti kooperativi tərəfindən yaşayış sahəsinin verildiyi andan; yaşayış sahəsinin mülkiyyətçisi üçün isə - yaşayış sahəsinə mülkiyyət hüququ əmələ gəldiyi andan yaranır".

"Kommunal haqqların məbləğinə gəlincə, bununla bağlı qanunvericilikdə hər hansı tarif müəyyən edilməyib. Həmin məbləğə binanın idarə olunması üçün xərclər, komendant, mühafizə, təmizlik, bağban və s. xidmətlərə görə əmək haqları, işıqlandırma, lift istismarı və digər xərclərin ödənilməsi daxildir. Məbləğin əsaslandırılmış təyini, məbləğin artırılıb-azaldılması isə Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətinin ümumi yığıncağı tərəfindən müəyyən edilməlidir" - deyə o, əlavə edib.

***S. Ağazadə***

## ELAN

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

İxtisas fortepiano kafedrası
Professor, sənətşünaslıq namizədi
**Professor**

Musiqi tarixi kafedrası
Professor, sənətşünaslıq namizədi
Professor, sənətşünaslıq namizədi
**Müəllim**

Musiqi nəzəriyyəsi kafedrası
Professor, elmlər namizədi
Professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru

Bəstəkarlıq kafedrası
**Dosent**

Fortepiano, orqan və klavesin kafedrası
**Dosent**
Dosent

Humanitar fənlər kafedrası
Dosent
Baş müəllim, filologiya üzrə fəlsəfə doktoru

**Nəfəs və zərb alətləri kafedrası**
Dosent, fəlsəfə doktoru

Konsertmeyster ustalığı kafedrası
**Baş müəllim**
Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır.
Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.
***Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "Qızıl top" mükafatı "Real"ın futbolçusuna veriləcək?

İspaniyanın məşhur "Marca" nəşri maraqlı iddia ilə çıxış edib. Nəşrin iddiasında deyilir ki, "France Football" nəşrinin təsis etdiyi "Qızıl top" mükafatı "Real" klubunun və Braziliya millisinin üzvü Vinisius Juniora veriləcək.



Qeyd edək ki, Vinisius Junior 2023/2024 mövsümündə Madrid təmsilçisi ilə İspaniya çempionu olub. O, bundan əlavə UEFA Çempionlar Liqasını və UEFA Superkubokunu da qazanıb. Vinger 49 matçda 26 qol, 13 məhsuldar ötürmə ilə yadda qalıb. "Qızıl top" mükafatı oktyabrın 28-də Parisdə təqdim olunacaq.

# ABŞ-da tələbələrə telefon qadağası qoyulub

ABŞ-ın Kaliforniya ştatında məktəblərdə şagirdlərin smartfonlardan istifadəsinə məhdudiyyət qoyulması barədə qərar qəbul edilib. SİA xarici mətbuata istinadən xəbər verir ki, yeni qanun tələbələrin məktəbdə olarkən ekranlara deyil, akademik işlərinə, sosial inkişafına və dünyaya diqqətini yönəltməyə kömək edəcək. İmzalanan yeni qanuna əsasən, ştatdakı məktəblər tələbələrin telefon istifadəsini məhdudlaşdıran qaydaları təbiq etməli olacaqlar.



Qanun məktəb şuralarından 2026-cı il iyulun 1-dək tələbələrin kampuslarda və ya məktəblərdə smartfon istifadəsini qadağan edən qaydalar yaratmağı və ya bunu müəyyən vəziyyətlərlə məhdudlaşdırmağı tələb edir. Qanun həm də sinifdə diqqəti yayındıran amilləri və sosial medianın uşaqların psixi sağlamlığına təsirini minimuma endirməyi hədəfləyir.

***Söylü***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**